RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 151 (9318) 21 İYUL 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin qlobal missiyası

**Dostluq, qardaşlıq münasibətləri getdikcə daha da güclənən, mövcud əməkdaşlıqları gündən-günə şaxələnən türkdilli dövlətlərin mövcud əlaqələri yeni yüksəliş mərhələsinə qədəm qoyub.**

Xüsusilə də bu ilin martın 16-da keçirilən Ankara zirvəsində qardaş ölkələr dünyaya daha bir mesaj ünvanlayaraq sarsılmaz münasibətlərinin möhkəm təməl üzərində qurulduğunu bəyan etdilər. İmzalanan Ankara Bəyannaməsində əksini tapan ifadələr, Türk İnvestisiya Fondunun yaradılması ilə bağlı qərarın qəbul olunması bir daha təsdiq etdi ki, dost və qardaş ölkələr çətin gündə dərhal bir-birinə lazımi dəstək verəcək və bu istiqamətdə əlindən gələni əsirgəməyəcəklər.

Təşkilatın yeni mərhələyə qədəm qoyması əsasən 2021-ci ildə İstanbul Zirvə görüşü ilə başlayıb. Tarixi İstanbul Zirvəsində təşkilatın adı dəyişdirildi və Türkmənistan TDT-yə müşahidəçi üzv kimi qoşuldu. Bu toplantıda TDT-nin 2040-cı ilədək konsepsiyası hazırlandı. Həmçinin Türk İnvestisiya Fondunun yaradılması təşəbbüsü irəli sürüldü. İstanbul Zirvə görüşündə diqqətçəkən məqamlardan biri də TDT-nin Ağsaqqallar Şurasının yaradılması idi. 2022-ci ildə keçirilən TDT-nin Səmərqənd Zirvə görüşünün isə ən mühüm nəticələrindən biri kimi Şimali Kipr Türk Cümhuriyyətinin quruma müşahidəçi statusunda qəbul edilməsi oldu.

800 milyard dollarlıq xarici ticarət həcmi, 160 milyonluq əhalisi, 5 milyon kvadratkilometr ərazisi olan bu təşkilat və onun 8 üzvü dünya iqtisadiyyatında və regional iqtisadiyyatda çox mühüm yer tutur. Lakin 8 ölkə arasında ticarət cəmi 24 milyard dollar təşkil edir. Bu baxımdan, təşkilatın üzvləri arasında ticarətin inkişafı və qarşılıqlı investisiyaların artırılması üçün daha çox səy göstərilməsinə ehtiyac var. Xüsusən də əsrlər boyu insanların xidmətində olan tarixi İpək yolunun bərpa edilməsi çox mühüm önəm daşıyır.

→ 4

## İndi Azərbaycan müasir gəmilər də inşa edir



Bu gün Bakı Gəmiqayırma Zavodunun nailiyyətləri misilsizdir. Zavodun istismara verilməsi ölkəmizdə yeni gəmilərin alınması istiqamətində idxaldan asılılığı aradan qaldırıb. Azərbaycanda belə bir zavodun yaradılması Xəzər dənizinin spesifik xüsusiyyətləri və bu hövzədə mövcud liman infrastrukturunun texniki imkanları nəzərə alınmaqla nadir layihələr və yeni konsepsiyalar əsasında bütün növ gəmilərin tikintisini mümkün edib. Ən yüksək standartlara uyğun gəmilərin istehsalı isə dövlətimizin həm iqtisadi gücünün, həm də sənaye və texnologiyalar sahəsində uğurlarının göstəricisidir.

→ 4

## "Xəzri dalğası" taktiki təlimi keçirilir



→ 9

## Prezident İlham Əliyev Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib



→ 2

## Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub



→ 2

## Prezident İlham Əliyev Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində



→ 2

## XİN: "Paşinyanın son çıxışı Ermənistanın sülh müqaviləsi danışıqlarına maneçilik törətmək niyyətini göstərir"

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan tərəfindən təklif olunan "Ağdam-Xankəndi" yolunun yüklərin daşınması üçün vacib olduğu fikrinə məhəl qoymayan Ermənistan tərəfinin hər vəchlə bu yoldan imtina etməsi bölgədə "gərgin humanitar vəziyyət" iddiasının əsassız olduğunu və Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini sübuta yetirir.

Azərbaycanın bölgədə "etnik təmizləmə" həyata keçirmək istiqamətində addımlar atdığı barədə Ermənistan tərəfinin iddiası olduqca yanlış və təhlükəlidir. Azərbaycanlılara qarşı kütləvi qırğınlar və deportasiyalar həyata keçirən Ermənistandan fərqli olaraq, Azərbaycan heç zaman erməni sakinlərə qarşı etnik təmizləmə siyasəti həyata keçirməyib. Qarabağı Azərbaycan ərazisi kimi tanıyan Ermənistanın baş naziri erməni sakinlərin Azərbaycana reinteqrasiyasını təşviq etmək əvəzinə, dialoqun hansı formada həyata keçirilməsinə dair şərtlər irəli sürməsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı addım kimi qiymətləndirilir və qəbuledilməzdir.

→ 5

# Prezident İlham Əliyev Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Cəlilabad rayonunda olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, ölkəmizdə əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artır. Bu sahəyə göstərilən diqqət həm də müasir infrastrukturun formalaşdırılması ilə müşayiət olunur. Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradacaq.

Məlumat verildi ki, hazırda Azərbaycanda 98 peşə təhsil müəssisəsi var. Peşə təhsil mərkəzlərinin sayı isə 14-dür. Ölkəmizdə 120 ixtisas üzrə 23 min 600 tələbə peşə təhsili alır. Son üç ildə peşə qəbulu üzrə göstəricilər 30 faiz artaraq, keçən il tələbələrin sayı 19 mini ötüb. Bundan başqa, 2022-2023-cü tədris ilində 5 regionda fəaliyyət göstərən 8 peşə təhsil müəssisəsində yüksək texniki peşə təhsil səviyyəsi üzrə də tələbə qəbulu aparılıb. Hazırda respublikada 1466 tələbə yüksək texniki peşə təhsili alır. Bu təhsil səviyyəsi üzrə tələbələrin sayının 2026-cı ilə qədər 9200-ə çatdırılması planlaşdırılır.

Bildirildi ki, hazırda Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır. Qarabağda Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır. Böyük Qayıdış Proqramı çərçivəsində ümumilikdə 8 peşə təhsil müəssisəsi tikilib istifadəyə veriləcək.

Dövlət başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə tanış oldu.

Ən müasir infrastruktur, maddi-texniki baza ilə təchiz olunan mərkəzin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir.

Peşə Təhsil Mərkəzində qənnadıçı, şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner, veb-dizayn və proqram təminatı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobillərin təmiri çilingəri, avtomobil sürücüsü, mebel ustası istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılacaq.

Eyni zamanda kənd təsərrüfatı mütəxəssislərinə artan tələbatı nəzərə alaraq bu sahə üzrə tədrisə xüsusi diqqət yetirilib. Müəssisədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, bitkiçilik, heyvandarlıq və baytarlıq üzrə mütəxəssislər də hazırlanacaq.

Qeyd edək ki, son illərdə Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, peşə təhsilinin yeni çağırışlara uyğunlaşdırılması, peşə təhsil müəssisələrinin rolunun və statusunun yüksəldilməsi bu sahəyə xüsusi diqqətin təzahürüdür.

Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin istifadəyə verilməsi bölgələrdə gənclərin yeni tələblərə uyğun bilik və bacarıqlara yiyələnməsinə, eləcə də məşğulluq məsələlərinin həllinə xidmət edəcək.
















# Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Füzuli rayonunda olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq.

Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Yolboyu müxtəlif diametrli 137 suötürücü boru, 30 yeraltı keçid, 8 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 984, viadukların uzunluğu isə 2090 metrdir.





Məlumat verildi ki, layihə üzrə tikintisi nəzərdə tutulmuş doqquz viadukun səkkizində hazırda inşaat işləri davam etdirilir. Viadukların üçünün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Bundan başqa, Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

# Prezident İlham Əliyev Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində olub.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 232** **QƏRAR** **Bakı şəhəri, 19 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627; 2005, № 7, maddə 678; 2006, № 2, maddə 185, № 4, maddə 378, № 5, maddə 470, № 9, maddə 819, № 10, maddə 902; 2007, № 5, maddə 546, № 10, maddə 1026; 2008, № 2, maddə 114; 2010, № 7, maddə 700; 2011, № 7, maddə 737; 2012, № 2, maddə 178, № 11, maddələr 1203, 1212, № 12, maddə 1359; 2013, № 3, maddə 348, № 5, maddə 580; 2014, № 5, maddə 554, № 8, maddə 1005; 2015, № 5, maddə 669; 2016, № 2 (II kitab), maddə 389, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 7, maddə 1499, № 12 (II kitab), maddə 2525; 2018, № 12 (II kitab), maddə 2760; 2019, № 3, maddə 516, № 4, maddələr 763, 781, № 8, maddə 1478; 2020, № 3, maddə 369, № 9, maddə 1206, № 10, maddələr 1273, 1304; 2021, № 2, maddə 207, № 3, maddə 274, № 9, maddə 1069; 2022, № 4, maddə 423, № 7, maddə 820, № 8, maddə 974) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

"1.5-1. Qeydiyyat şöbəsində və konsulluq idarəsində vətəndaşlıq vəziyyəti aktlarının, icra hakimiyyətinin nümayəndəliyində doğumun, nikahın bağlanmasının və ölümün dövlət qeydiyyatı aparılarkən yer adları mövcud olan inzibati ərazi vahidlərinin adlarına uyğun yazılır. Ermənistan Respublikasındakı yer adları isə Azərbaycanın tarixi toponimlərinə uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının tövsiyələri nəzərə alınmaqla yazılır.".

2. 9.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.11. Verilən təkrar şəhadətnamələrdə və arayışlarda yer adları həmin sənədlərin verildiyi gün mövcud olan inzibati ərazi vahidlərinin adlarına uyğun yazılır. Təkrar şəhadətnamələrdə və arayışlarda Ermənistan Respublikasındakı yer adları yazılarkən bu Qaydanın 1.5-1-ci bəndinin tələbləri tətbiq edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 233** **QƏRAR** **Bakı şəhəri, 19 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli və "Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2019-cu il 22 aprel tarixli 188 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 776-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320, № 4, maddə 588; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 may tarixli 170 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə"nin "3.5.0. "Hüquqi yardım" köməkçi bölməsinə "tanınmış" sözündən sonra ", həmçinin cinsi istismar və ya cinsi zorakılıq qurbanı olmuş və cinayət prosesində öz hüquqlarını müstəqil həyata keçirən və pulsuz hüquqi yardım göstərilməsini tələb edən uşaqlara xidmət göstərən" sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "222970. "Məhkəmə və mediasiya prosesi ilə bağlı xidmətlərin ödənilməsi" maddəsinin birinci cümləsində və "222971. "Hüquqi yardım" yarımmadəsində "ölmüş, zərər çəkmiş şəxsin" sözləri "ölmüş zərər çəkmiş şəxsin" sözləri ilə əvəz edilsin, "tanınmış" sözündən sonra ", həmçinin cinsi istismar və ya cinsi zorakılıq qurbanı olmuş və cinayət prosesində öz hüquqlarını müstəqil həyata keçirən və pulsuz hüquqi yardım göstərilməsini tələb edən uşaqlara xidmət göstərən" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 779; 2020, № 11, maddə 1408) ilə təsdiq edilmiş "Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası"nın 2.3.1-ci yarımbəndinə və 3.4-cü bəndinə "əleyhinə cinayət" sözlərindən sonra ", o cümlədən uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 234** **QƏRAR** **Bakı şəhəri, 19 iyul 2023-cü il**

## "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2035 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747; 2012, № 8, maddələr 827, 830; 2013, № 3, maddə 347, № 7, maddə 886, № 8, maddə 1017, № 10, maddə 1218; 2014, № 1, maddələr 51, 69, № 2, maddə 201, № 4, maddə 441, № 5, maddələr 572, 594, № 6, maddə 747, № 8, maddə 1015, № 12, maddələr 1658, 1666; 2015, № 2, maddə 227, № 11, maddə 1417; 2016, № 3, maddə 609, № 4, maddə 831, № 5, maddə 955, № 7, maddə 1353, № 8, maddə 1437, № 9, maddələr 1585, 1589, № 12, maddə 2241; 2017, № 5, maddə 966, № 10, maddələr 1890, 1919, № 11, maddə 2168, № 12 (II kitab), maddələr 2476, 2487, 2507; 2018, № 3, maddələr 588, 632, № 6, maddə 1374, № 7 (II kitab), maddə 1668, № 8, maddə 1807, № 9, maddə 1906, № 10, maddələr 2142, 2172, № 11, maddə 2426; 2019, № 3, maddələr 529, 563; 2020, № 2, maddə 204, № 4, maddə 500, № 5, maddə 652, № 8, maddə 1123, № 9, maddə 1217, № 10, maddələr 1258, 1296, № 11, maddə 1405, № 12 (V kitab), maddə 1616; 2021, № 2, maddə 203, № 3, maddələr 265, 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 682; 2022, № 1, maddə 59, № 3, maddə 277, № 4, maddələr 387, 411, № 5, maddə 544, № 6, maddə 683, № 7, maddə 811, № 9, maddələr 1083, 1109, № 11, maddə 1356, № 12, maddələr 1552, 1560; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 167 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq - mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 5-1-ci hissəsinin "cəmi" sütununda "3" rəqəmi "11" rəqəmləri ilə əvəz edilsin və "ərazi və yerli bölmələr üzrə" sütununa "8" rəqəmi əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan hökuməti Ermənistandan Arazdəyəndə metallurgiya zavodunun inşasının dayandırılmasını tələb edib

**Azərbaycan hökuməti Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə - Arazdəyəndə iri metallurgiya zavodunun inşasının dayandırılmasını tələb edib. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin adından Ermənistanın ətraf mühit nazirinə ünvanlanan məktubda bildirilib ki, Ermənistanla Azərbaycan arasındakı şərti sərhəddən bir neçə yüz metr aralıda yerləşən Yerasx qəsəbəsi (Arazdəyən) yaxınlığında həyata keçirilən və transsərhəd təsiri ola biləcək fəaliyyətlə bağlı "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"da (Espo Konvensiyası) nəzərdə tutulmuş müvafiq prosedur başlanılıb.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib. Xüsusi olaraq vurğulanıb ki, Espo Konvensiyasının 1-ci əlavəsinə əsasən, metallurgiya zavodları açıq şəkildə əhəmiyyətli mənfi transsərhəd təsirə səbəb ola biləcək fəaliyyət kimi tanınır.

Espo Konvensiyasının 3.1-ci maddəsinə uyğun olaraq, Ermənistan qeyd olunan fəaliyyətin ətraf mühitə təsiri ilə bağlı Azərbaycanı xəbərdar etməyə borcludur. Lakin təsirə məruz qalan tərəf olaraq Azərbaycan Ermənistandan bu layihə ilə bağlı heç bir bildiriş almamışdır.

Vurğulanıb ki, qeyd olunanları nəzərə alaraq, Espo Konvensiyasının 3.7-ci maddəsinə uyğun olaraq, Azərbaycan təsirə məruz qalan tərəf kimi ilkin mərhələdə Ermənistandan layihənin mənfi transsərhəd təsiri ilə bağlı müzakirələrin aparılması məqsədilə məlumat mübadiləsinin aparılmasını tələb edir.

Eyni zamanda Azərbaycan hökuməti layihənin transsərhəd təsiri ilə bağlı suallar tam aydınlaşdırılana və adekvat şəkildə baxılana qədər Ermənistan tərəfindən zavodun tikintisinin dərhal dayandırılmasını tələb edir.

Məsələ ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının icraçı katibinə də müvafiq bildiriş ünvanlanıb.

# *Azərbaycan Ermənistanın qarşısında tələb qoydu:* "Arazdəyəndə metallurgiya zavodunun inşası dərhal dayandırılmalıdır"

**Otuz il ərzində Qarabağ və Şərqi Zəngəzurda ekosid törədərək "ölü torpaq" siyasəti həyata keçirən Ermənistan hazırda da transsərhəd ekoloji terrorunu davam etdirir. Ekocinayətkar ölkənin Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə - Arazdəyəndə iri metallurgiya zavodu inşa etmək kimi yaramaz planı isə təkcə Azərbaycanın yox, bütövlükdə bölgənin və dünyanın ekosistemini təhdid qarşısında qoyur.**

Bütün bunlara görə ötən gün Azərbaycan hökuməti Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə - Arazdəyəndə iri metallurgiya zavodunun inşasının dayandırılmasını tələb etdi.

### Bu vəhşi tayfa təbiətin qənimidir

Ümumiyyətlə, terror törətməklə insanlığa qarşı cinayət əməlləri ilə məşğul olan bu vəhşi tayfa təbiətin də qənimidir və bunu Qarabağ və Şərqi Zəngəzura səfər edən hər kəs əyani şəkildə görə bilər.

2020-ci ildə Kəlbəcər, Laçın və Ağdamı boşaltmaq üçün Azərbaycanın humanist mövqeyi nəticəsində verilən əlavə vaxtdan istifadə edərək evləri, meşələri yandırmaları, ağacları kəsmələri, eləcə də qanunsuz məskunlaşdıqları Laçın şəhərini, Zabux və Sus kəndlərini ötən il boşaldan zaman yenə də evlərə, meşələrə od vuraraq vəhşiliklərini nümayiş etdirmələri heç kəsin yadından çıxmayıb.

Eləcə də faktlarla sübuta yetirilib ki, Ermənistanın ekoloji terror siyasəti sayəsində transsərhəd çay olan Oxçuçay tamamilə təhlükə mənbəyinə çevrilib. Aparılan araşdırmalar zamanı aşkar olunub ki, Qafan və Qacaran dağ-mədən sənayesinin tullantı suları təmizlənmədən birbaşa Oxçuçaya axıdılır. Nəticədə çirklənmə səviyyəsinin normadan dəfələrlə artıq olması Oxçuçayın su ehtiyatlarının istifadəsinin yararsız hesab edilməsinə gətirib çıxarıb.

Ermənistanın bu cinayət əməllərinə beynəlxalq ictimaiyyət tərəfindən heç bir təsir, təzyiq göstərilməməsinin acı və ağır nəticəsidir ki, indi də sərhədimizdə iri metallurgiya zavodu inşa etmək istəyir.

### Ermənistan transsərhəd ekoloji fəlakət törətməkdə davam edir

Ermənistanın işğal müddətində ərazilərimizdə həyata keçirdiyi ekoloji terrorla bağlı faktları iyulun 5-də Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü zamanı çıxışında Prezident İlham Əliyev də dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Dövlət başçısı bildirdi ki, Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir. Altmış min hektar meşəlik məhv edilmiş, kəsilmiş və daşınmışdır, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərləndirilmişdir.

"Ermənistan indi isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində transsərhəd ekoloji fəlakət törətməkdə davam edir", - söyləyən Prezident İlham Əliyev beynəlxalq tədbir iştirakçılarının nəzərinə onu da yetirdi ki, bununla Ermənistan 1991-ci il Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından (Espo Konvensiyası) irəli gələn öhdəliklərini pozmuş olur. Bu konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir.

Lakin Ermənistan Espo Konvensiyasının üzvü olaraq sözügedən fəaliyyətə başlamazdan öncə Azərbaycanın və təsirə məruz qalan ərazilərdə ictimaiyyətin transsərhəd ətraf mühitə təsirin qiymətləndirilməsi prosedurunda iştirakını təmin etməyib, bir sözlə, beynəlxalq qanunu heçə sayıb.

### QHT-lərimizdən dünyaya çağırış

Xatırladaq ki, iyunun 8-də Azərbaycanda fəaliyyət göstərən ekolojiyönümlü QHT-lər Ermənistanın yeni ekoloji fəlakətə yol açacaq bu layihəsi əleyhinə birgə bəyanat səsləndiriblər. Ekoloqlarımız ABŞ dövlətinə və Ermənistan ekoloqlarına da çağırış ünvanlayaraq bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantılarının bölgədəki ekosistemə böyük zərbə vura biləcəyini, onun tullantılarının Araz çayına axıdılması riskinin həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalı olduğunu vurğulayıblar: "Ermənistanın dağ-mədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də ümumilikdə bölgə üçün ciddi ekoloji təhdid yaradır".

İyulun 7-də Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatları Ermənistanın baş naziri Nikol Paşinyana bu ölkənin dağ-mədən sənayesinin Cənubi Qafqazda ekoloji sabitliyi pozması barədə açıq məktub ünvanlayıblar.

Ayın 18-də isə Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları Ermənistanın dağ-mədən sənayesinin fəaliyyəti nəticəsində yaranan, Yer kürəsinin ekosisteminə regional və qlobal təsir göstərən ekoloji fəlakətlə əlaqədar beynəlxalq ictimaiyyətə və Birləşmiş Millətlər Təşkilatına (BMT) müraciət ünvanlayıblar.

Müraciətdə bildirilib ki, Ermənistanın Azərbaycanla sərhəd bölgəsində davam edən mədən əməliyyatları ekosistemin deqradasiyası ilə nəticələnib və bu, yalnız Ermənistanın ətraf mühiti üçün deyil, həm də qonşu ölkələr üçün ciddi təhlükə yaradır. Mədən fəaliyyətinin ətraf mühitə vurduğu ziyan həm regionda, həm də ondan kənarda icmaların sağlamlığına və rifahına təhlükə törədərək transsərhəd təsir göstərir.

Prezident İlham Əliyevin sədrliyi ilə iyulun 11-də 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında bu məsələyə ətraflı toxunan dövlət başçısı qeyd etdi ki, bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar: "Ona görə mən hesab edirəm ki, Azərbaycan hökuməti də burada kənarda qalmamalıdır...

...Biz bu məsələləri qanun çərçivəsində, beynəlxalq konvensiyalar çərçivəsində, diplomatiya çərçivəsində mütləq diqqətdə saxlamalıyıq. Ona görə bu tapşırığı verirəm, siz baxın, hansı hüquqi yollar var ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin".

### Azərbaycan hökumətinin tələbi

İyulun 20-də Azərbaycan hökuməti Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə - Arazdəyəndə iri metallurgiya zavodunun inşasının dayandırılmasını tələb etdi.

Bununla bağlı Nazirlər Kabinetinin Mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin adından Ermənistanın ətraf mühit nazirinə ünvanlanan məktubda bildirilib ki, bu ölkə ilə Azərbaycan arasındakı şərti sərhəddən bir neçə yüz metr aralıda yerləşən Yerasx qəsəbəsi (Arazdəyən) yaxınlığında həyata keçirilən və transsərhəd təsiri ola biləcək fəaliyyətlə bağlı "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"da (Espo Konvensiyası) nəzərdə tutulmuş müvafiq prosedura başlanılıb.

Xüsusi vurğulanıb ki, Espo Konvensiyasının 1-ci əlavəsinə əsasən, metallurgiya zavodları açıq şəkildə əhəmiyyətli mənfi transsərhəd təsirə səbəb ola biləcək fəaliyyət kimi tanınır.

Espo Konvensiyasının 3.1-ci maddəsinə uyğun olaraq, Ermənistan qeyd olunan fəaliyyətin ətraf mühitə təsiri ilə bağlı Azərbaycanı xəbərdar etməyə borcludur. Lakin təsirə məruz qalan tərəf olaraq Azərbaycan Ermənistandan bu layihə ilə bağlı heç bir bildiriş almamışdır.

Məktubda o da vurğulanıb ki, qeyd olunanları nəzərə alaraq, Espo Konvensiyasının 3.7-ci maddəsinə uyğun olaraq, Azərbaycan təsirə məruz qalan tərəf kimi ilkin mərhələdə Ermənistandan layihənin mənfi transsərhəd təsiri ilə bağlı müzakirələrin aparılması məqsədilə məlumat mübadiləsinin aparılmasını tələb edir.

Eyni zamanda Azərbaycan hökuməti layihənin transsərhəd təsiri ilə bağlı suallar tam aydınlaşdırılana və adekvat şəkildə baxılana qədər Ermənistan tərəfindən zavodun tikintisinin dərhal dayandırılmasını tələb edib.

Məsələ ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının icraçı katibinə də müvafiq bildiriş ünvanlanıb.

Göründüyü kimi, Azərbaycan dövləti Ermənistanın transsərhəd ekocinayətini durdurmaq üçün qanun və beynəlxalq konvensiyalar çərçivəsində bütün mümkün addımları atır. Beynəlxalq ictimaiyyət də öz növbəsində Ermənistanın ekoterroruna göz yummamalı, dünya ekosistemini təhdid edən bu metallurgiya zavodunun fəaliyyətinə "dur" deməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İlham Əliyevin qlobal missiyası



Əvvəli 1-ci səh.

### Naxçıvandan başlanan 14 illik uğurlu yol

Türk Dövlətləri Təşkilatı türkdilli ölkələrin dövlət başçılarının 2009-cu il oktyabr ayının 3-də Naxçıvanda keçirilən Zirvə görüşündə imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması" haqqında sazişə əsasən təsis edilib.

2022-ci ilə qədər Türk Dövlətləri Əməkdaşlıq Şurası adlandırılan Türk Dövlətləri Təşkilatı (TDT) son 14 ildə böyük inkişaf yolu keçib. İllər öncə imzalanmış sazişə əsasən təşkilatın məqsədi türk dövlətləri arasında qarşılıqlı dostluğun möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın edilməsi, bütün sahələrdə qarşılıqlı əlaqənin və ölkələr arasında təmasların təşviqi və sairdir.

Bu dövrdə üzv dövlətlər təşkilatın məqsəd və prinsiplərinə uyğun olaraq əməkdaşlığın yeni formatlarını qurublar. Belə ki, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRK PA), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurası kimi qurumların yaradılması nəticəsində TDT çərçivəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənib.

### Azərbaycan türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib

Bu ilin martında Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Zirvə görüşünün mədəniyyətimizin paytaxtı Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Prezident İlham Əliyev Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış etdi.

Azərbaycan Prezidentinin bu xoşməramlı təklifi digər iştirakçı ölkələrin rəhbərliyi ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olundu. Beləliklə, İlham Əliyevin təklifi dəstəkləndi. Əlbəttə ki, bu ilk növbədə bir daha Azərbaycan-Türkiyə qardaşlığının, türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.

İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri olduğunu bəyan edib. Ötən ilin noyabrında Türkdilli Dövlətlər Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə görüşündə dövlət başçısı vurğulamışdır ki, Azərbaycan həmişə türkdilli dövlətlərin sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. Buna görə də digər qardaş ölkələr də həmrəylik nümayiş etdirərək təşkilatın güclənməsi üçün müxtəlif sahələrdə əməkdaşlığı genişləndirməlidirlər: "Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

Əgər digər qardaş ölkələr də bu addımları atarlarsa, deyə bilərik ki, tezliklə təşkilat vahid güc mərkəzinə çevrilə bilər.

Xüsusilə vurğulanmalıdır ki, türk dünyasının potensialını vahid məqsəd istiqamətində ilk dəfə məhz İlham Əliyev birləşdirmiş və qlobal pandemiya ilə mübarizədə bu birlik formulu çox səmərəli mexanizmə çevrilmişdir. Təşkilat yaranarkən qarşıya qoyulan, habelə yeni geosiyasi reallıq fonunda transformasiya keçirən hədəflər aydın və kifayət qədər sağlamdır. İlk növbədə ona görə ki, bizim əməkdaşlığımız yalnız mənəvi əsaslara dayanmır - ortada İlham Əliyev tərəfindən formalaşdırılan və dövlətlərin suveren milli maraqlarının təmin olunduğu reallıq var.

Ankara Zirvə görüşündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin TDT-nin yüksəlişi üçün atdığı addımları çox yüksək dəyərləndirmişdir. Türkiyə liderinin aydın formada ifadə etdiyi kimi, həqiqətən də, TDT-nin uzunmüddətli perspektivləri məhz İlham Əliyevin böyük uzaqgörənliklə bütün çətinlik və müqavimətlərə baxmayaraq, yarada bildiyi transmilli enerji infrastrukturu ilə birbaşa bağlıdır. Rəcəb Tayyib Ərdoğan qeyd etmişdir ki, Azərbaycanın bu gün sürətlə reallaşdırmaq üzrə olduğu Zəngəzur dəhlizi isə türk dünyası üçün ikinci nəfəs olacaq və Türk Dövlətləri Təşkilatının hər bir üzvü, o cümlədən müşahidəçi üzvlər bunu çox gözəl anlayır və layihənin tam realizəsi üçün maraqlı tərəf kimi çıxış etməyə başlayıblar. Bütün bunlar göstərir ki, Azərbaycan üçün prinsipial milli maraqların digər dövlətlər üçün də milli maraq səviyyəsinə yüksəldilməsinə şahidlik edirik və bu da öz növbəsində Prezident İlham Əliyevin uğurlu siyasi kombinasiyası hesab edilməlidir.

### Türk İnvestisiya Fondunun yaradılması əməkdaşlığın inkişafına mühüm töhfə verəcək

TDT-nin liderlərinin İstanbul və Ankara Zirvə görüşlərində iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcək qərarlar qəbul edilmişdir. Bunlardan biri də Türk İnvestisiya Fondunun yaradılması idi. Bu fondun üzv ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcəyi bildirilir.

Azərbaycan Milli Məclisi "Türk İnvestisiya Fondunun yaradılması haqqında" Sazişi ratifikasiya edib. Fondun yaradılması ilə bağlı qanun layihəsi Prezident İlham Əliyev tərəfindən də təsdiq edilib.

Məlumata görə, fondun kapitalı ilk mərhələdə 500 milyon dollar olacaq. İstanbuldan idarə olunacaq fond Türk Dövlətləri Təşkilatı üzvləri arasındakı ticarət-iqtisadi əməkdaşlığı dəstəkləyəcək.

Fondun fəaliyyəti Türk Dövlətləri Təşkilatına üzv ölkələrin iqtisadi potensialının inkişafına, onlar arasında ticari-iqtisadi əməkdaşlığın gücləndirilməsinə, birgə layihələrin həyata keçirilməsinə yönəldiləcək.

Sənədə əsasən, fond öz məqsədini həyata keçirmək üçün regiondaxili ticarətin təşviqində yardım etmək, xüsusilə mikro, kiçik və orta müəssisələrə aid olan layihələri maliyyələşdirmək, beynəlxalq və milli maliyyə və inkişaf institutları, eləcə də ticarət palataları və özəl müəssisələr ilə əməkdaşlıq etmək, nəqliyyat və logistika zəncirlərinin, saxlama və istehsal imkanlarının genişləndirilməsini dəstəkləmək funksiya və səlahiyyətlərinə malikdir.

Bundan əlavə, fond dövlət-özəl tərəfdaşlığı daxil olmaqla rəqəmsal infrastrukturun yaradılmasını və modernləşdirilməsini dəstəkləyəcək, sənaye istehsalı, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, informasiya və kommunikasiya texnologiyaları və turizm daxil olmaqla qarşılıqlı maraq doğuran sahələrdə inkişaf layihələrinə dəstək olacaq, enerji səmərəliliyi, bərpaolunan enerji və ətraf mühitin mühafizəsinə investisiya yatırmaqla "yaşıl iqtisadiyyata" töhfə verən layihələri maliyyələşdirəcək. Həmçinin zəruri hesab edildikdə investisiya layihələrinin hazırlanması üçün yardım və maliyyə dəstəyini təmin edəcək.

Qeyd edək ki, son illərdə Xəzər hövzəsində türk dünyası ölkələri neft, təbii qaz və elektrik enerjisi sahələrində irimiqyaslı layihələri birlikdə uğurla həyata keçirirlər. Bunun bariz nümunəsi kimi Bakı-Tbilisi-Ceyhan boru kəmərinin 16 ildir Azərbaycan, Türkmənistan və Qazaxıstan neftini dünya bazarlarına fasiləsiz çatdırdığını göstərmək olar. "Cənub qaz dəhlizi" sayəsində isə türk dövlətləri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayırlar.

Bütün bunlar onu deməyə əsas verir ki, quruma üzv ölkələrin əlaqələrinin getdikcə daha da güclənməsi tezliklə Türk Dövlətləri Təşkilatını vahid güc mərkəzinə çevirəcək.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# İndi Azərbaycan müasir gəmilər də inşa edir

**10 il əvvələ qədər Azərbaycanda gəmiqayırma müəssisəsi yox idi. Sovet dönəmində paytaxtımızda yalnız bir neçə gəmi təmiri zavodu işləyirdi. Gəmilər xaricdən alınır və buna böyük vəsait xərclənirdi. Odur ki, Bakıda gəmi inşa edən müasir, nəhəng bir zavodun tikilib istifadəyə verilməsi və fəaliyyət göstərməsi Prezident İlham Əliyevin iqtisadi strategiyasının mühüm nailiyyətlərindən biridir.**

Zavodun təməli 2010-cu ildə qoyuldu. 2013-cü ildə isə müəssisə istifadəyə verildi. Belə bir zavodun tikilməsi ideyası yarananda bəziləri hesab edirdi ki, başqa ölkələrdən gəmi, tanker ala bildiyimiz halda buna ehtiyac yoxdur. Dövlət başçısı isə bu müəssisənin nə dərəcədə əhəmiyyətli olduğunu əvvəlcədən müəyyən etmişdi.

Bu gün Bakı Gəmiqayırma Zavodunun nailiyyətləri misilsizdir. Zavodun istismara verilməsi ölkəmizdə yeni gəmilərin alınması istiqamətində idxaldan asılılığı aradan qaldırıb. Azərbaycanda belə bir zavodun yaradılması Xəzər dənizinin spesifik xüsusiyyətləri və bu hövzədə mövcud liman infrastrukturunun texniki imkanları nəzərə alınmaqla nadir layihələr və yeni konsepsiyalar əsasında bütün növ gəmilərin tikintisini mümkün edib. Ən yüksək standartlara uyğun gəmilərin istehsalı isə dövlətimizin həm iqtisadi gücünün, həm də sənaye və texnologiyalar sahəsində uğurlarının göstəricisidir.

Prezident İlham Əliyev zavod istifadəyə verilərkən bunun ölkəmiz üçün tarixi hadisə olduğunu qeyd edib. Təsadüfi deyil ki, dövlət başçısı bu ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə də bu mövzuya bir daha toxunub: "Əgər bu gün bizdə gəmiqayırma zavodu olmasaydı, biz tankerləri, gəmiləri haradan alacaqdıq? İndi sual ritorikdir. Biz əvvəllər haradan alırdıq, indi oradan heç kim ala bilmir. Ona görə bu, vaxtında atılmış strateji bir addım idi".

Ötən dövrün salnaməsinə nəzər salsaq, zavodun gördüyü böyük işlərin mənzərəsi daha aydın görünər. Elə keçən ili xatırlayaq. 2022-ci il aprelin 28-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sifarişi ilə zavodda inşa olunan "Ro-Pax" tipli "Zərifə Əliyeva" gəmi-bərəsi istismara verildi. 30 nəfərlik heyət üzvünün idarə etdiyi gəmi-bərə ilə eyni vaxtda 100 sərnişin, sistern tipli 56 vaqon və ya 50 yük avtomobili/TIR daşımaq mümkündür. "Zərifə Əliyeva", eləcə də zavodda əvvəl istehsal edilmiş "Azərbaycan" gəmi-bərələri bu göstəricilərinə görə Xəzər hövzəsində istismar olunan digər gəmi-bərələrdən daha üstündür. Dünyanın aparıcı istehsalçılarının müasir avadanlıqları ilə təchiz olunan "Zərifə Əliyeva" gəmi-bərəsində yük lifti, vertolyot meydançası, dalğalı havada gəminin sabitləşdirilməsi sistemi, dartıcı lokomotivlər var.

Keçən il dekabrın 7-də isə Prezident İlham Əliyevin iştirakı ilə "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimi keçirildi. Bu, uzunluğu 141, eni 16,9 metr, yükgötürmə qabiliyyəti 7800 ton olan bir tankerdir. Tanınmış neftçi-geoloqun adını daşıyan tankerlə həm neft, həm də kimyəvi məhsulların daşınması mümkündür. Gəminin suya oturumu ASCO-nun digər tankerləri ilə müqayisədə maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Rusiyanın su kanalları ilə Xəzərdən kənara yük daşımağa imkan yaradır.

Xatırladaq ki, 2019-cu ilin dekabrında Bakı Gəmiqayırma Zavodunda inşa olunan "Laçın" və 2021-ci ilin sentyabrında "Kəlbəcər" neft tankerləri də istismara verilib.

"Laçın"ın uzunluğu 141, eni 16,9, bortunun hündürlüyü 6 metrdir. Dedveyti dənizdə 7875, çayda 5447 ton olan tanker hər biri 1200 kW gücə malik iki mühərriklə təchiz edilib. Saatda 10 uzel sürətlə hərəkət edə bilir. "Laçın" tankeri xam neft və neft məhsulları daşınması üçün ümumi tutumu 9190 kubmetr olan 6 yük tankına malikdir. Bu tanker həm Xəzərdə neft və neft məhsullarının daşınmasını, həm də Volqa-Don və Volqa-Baltik kanalları ilə Xəzərdən kənar hövzələrə maye yüklərin daşınmasını təmin edir. Britaniya Kral Dəniz Mühəndisləri Cəmiyyətinin (Royal Institution of Naval Architects, RINA) siyahısına görə, "Laçın" tankeri 2019-cu ildə dünyada inşa edilən ən yaxşı 50 mülki gəmidən biri olub.

"Kəlbəcər" neft tankerinin uzunluğu, eni, bortunun hündürlüyü, dedveyti, yük çənlərinin tutumu təxminən "Laçın"da olduğu kimidir. "Laçın" 11, "Kəlbəcər" 15 nəfərlik heyətlə idarə olunur. "Kəlbəcər" tankerinin xarici sularda istismarı nəzərdə tutulub.

Zavodun məhsulu olan "Azərbaycan" gəmi-bərəsi isə 30 nəfərlik heyətlə saatda 14 knot sürətlə hərəkət edə bilir. Qısa beynəlxalq səfərlər üçün nəzərdə tutulan gəmi 100 nəfər sərnişin tutumuna malik olmaqla yanaşı, T-1 ölçülü dəmiryolu vaqonları, avtomobillər və yük maşınlarını daşımağa qadirdir. Gəmi 2600 kVt gücə malik 2 əsas mühərrik, 188 ton ağırlıq qaldırma qabiliyyətli yük lifti, vertolyot meydançası, digər avadanlıq və infrastrukturla təchiz olunub.

Britaniya Kral Dəniz Mühəndisləri Cəmiyyətinin (Royayal Institution of Naval Architects, RINA) 2021-ci ilin ən yaxşı gəmilərinin siyahısında Ro-Pax tipli "Azərbaycan" ən yaxşı gəmi-bərə kimi yer alıb.

"Xankəndi" sualtı tikinti gəmisi məxsusi olaraq "Şahdəniz" yatağında işləmək üçün tikilib. Azərbaycanın qaz ixrac edən ölkə kimi tanınmasında bu nadir gəminin də rolu var. Deməli, bu cür ən müasir gəmi və tankerlər istehsal edən zavodun Azərbaycanın dünyada getdikcə daha çox önəm qazanmasında payı böyükdür.

Odur ki, dövlət başçısı bu ilin birinci yarısının göstəricilərinə yekun vurularkən Azərbaycanda gəmi inşasının daha da genişləndirilməsinin vacibliyini qeyd edib: "Bizim Xəzərdəki gəmiqayırma imkanlarımıza da yenidən baxmalıyıq. Çünki qonşu ölkələrdən sifarişlər gəlir. Bizim gəmiqayırma zavodumuz mövcud daşıma imkanlarımıza hesablanmışdır. Eyni zamanda uzun illər fəaliyyət göstərən gəmilərin sıradan çıxmasını da nəzərə alırıq. Çünki onlar sıradan çıxır, təzələnməlidir. Amma indi daha böyük tələbat var - həm bizim, həm də ki, qonşu ölkələrin. Beləliklə, istisna deyil ki, biz nə vaxtsa gəmiqayırma zavodunun istehsalat sahələrinin genişləndirilməsinə də başlaya bilərik. Yəni siz bunu diqqətdə saxlayın. Hər halda xaricdən gələn sifarişlər, - biz artıq ilkin danışıqlara başlamışıq, - çox müsbət haldır və bu, bir daha göstərir ki, biz hər şeyi vaxtında edirik".

Qeyd edək ki, zavod indiyədək xarici ölkələrdən alınan sifarişləri də uğurla yerinə yetirib. Burada 2018-ci ildə "Bue Bulkers Limited" şirkətinin sifarişi əsasında Qazaxıstanın "Kazmortransflot" şirkətinə məxsus üç gəminin əsas gövdə və qanad çənlərinin quraşdırılmasına dair işləri uğurla tamamlayıb və təhvil verib. 2022-ci ildə isə müəssisədə Türkmənistanın "Nurly Tolkun" şirkətinə məxsus "NT Flagman" üçayaqlı üzən qurğunun gövdə bloklarının və ayaqlarının birləşdirilməsi, eləcə də hərəkətverici sistemləri və yükqaldırma kranlarının əsaslı təmir olunması işləri müvəffəqiyyətlə tamamlanıb.

*Flora SADIQLI, "Azərbaycan"*

# Mərkəzi Nəbatat bağı - bitkilərin "görüş" yeri

**Mərkəzi Nəbatat bağının 100-ə yaxın yaşı var. Bağ 1934-cü ildə Bakının dağlıq hissəsində - "Qurd qapısı" deyilən ərazinin yaxınlığında salınıb. Yeri gəlmişkən, qeyd edək ki, ikinci belə bir Botanika bağı Mərdəkanda yerləşir.**

Nəbatat bağında yerli və başqa ölkələrdən gətirilən bitkilər becərilir və onların yerli mühitə necə alışması diqqətlə öyrənilir. Bu bağın əsas vəzifəsi də elə bitki ehtiyatlarını öyrənib zənginləşdirmək, onların təsərrüfat üçün qiymətli növlərini seçib müəyyənləşdirmək və inkişaf etdirməkdir. Onu da bildirək ki, bu bağ Azərbaycan Prezidentinin diqqət mərkəzində yerləşən vacib sahələrdən biridir. Mərkəzi Nəbatat bağında aparılan yenidənqurma işləri dövlət başçısının müvafiq sərəncamına uyğun olaraq həyata keçirilir. İyulun 12-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Mərkəzi Nəbatat bağında aparılan işlərlə tanış olmaları dediklərimizi bir daha təsdiq edir.

Prezidentə məlumat verilmişdir ki, aparılan yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat bağının ərazisi genişləndirilərək 44,8 hektara çatdırılmışdır. Bağın ərazisində yerləşmiş avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülmüşdür. Hazırda yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri aparılır. Bu zaman bağ memarlığının unikal elementlərindən istifadə edilir, müxtəlif növ yeni ağaclar əkilir. Bundan başqa, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Onu da xatırladaq ki, Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədi ilə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərir. Nəbatat bağında 2500-dən çox ağac, kol, ot bitkiləri var. Bağda 130-a yaxın nadir bitki növü qorunur.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakıda abadlıq və yenidənqurma işləri geniş vüsət almışdır. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili üçün yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır,



mövcud park və xiyabanlar əsaslı şəkildə yenidən qurulur. Bütün bunların sayəsində paytaxt tədricən yaşıl şəhərə çevrilir.

O da sirr deyil ki, müasir dünyanın ekoloji durumu getdikcə ağırlaşır və bütünlükdə bəşəriyyət çox çətin sınaqlarla, böyük sıxıntılarla üzləşir. Baş verən iqlim dəyişiklikləri və təbii fəlakətlər bəzən də insanları bədbinliyə qapadır. Məhz bu baxımdan dünyada yaradılan nəbatat bağlarının xüsusi əhəmiyyəti var. Onlar cəmiyyəti daha böyük həmrəyliklə yaranan ekoloji problemlərin qarşısının alınmasına cəlb edir.

Faktiki olaraq dünyada nəbatat bağları uzun müddətdir yaradılır və inkişaf etdirilir. Məsələn, Nyu Yorkdakı 21 hektarlıq bağın əsası 1910-cu ildə qoyulub və hər il təxminən bir milyon insan buranı ziyarət edir. Bir sıra xüsusi bağların, bitki kolleksiyalarının, Steinhardt Konservatoriyasının, incəsənət qalereyasının daxil olduğu bağın digər bağlardan fərqi burada 12 min növ bitkinin, bonsai muzeyinin, istixana, albalı çiçəyi esplanadasının, yapon və qaya bağlarının olmasıdır.

Rio-de-Janeyronın 140 hektarlıq Nəbatat bağı UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmişdir. 6500 bitki növünün becərildiyi və bir çox əhəmiyyətli abidələrin yerləşdiyi bağ sanki bir oksigen dənizidir.

Turistlər arasında olduqca məşhur olan Nong Nooch Tropik Nəbatat bağı Tailandın Çonburi əyalətində (Pattaya yaxınlığında) yerləşir. Sahəsi 2,4 kvadratkilometrdir. Kəpənək təpəsi, Orxideya bağı, fil ferması, fransız parkı, bonsai bağı bu heyrətamiz bağdakı maraqlı yerlərin tam siyahısı deyil.

Fransanın Claude Monet bağı isə vaxtilə məşhur rəssam Oskar Klod Monenin şəxsi malikanəsi olub. Bağın yaradılmasında rəssam öz təxəyyülünün imkanlarından məharətlə istifadə edib. Əgər Fransaya yolunuz düşsə, apreldən oktyabr ayınadək bu yerin gözəlliyindən zövq ala bilərsiniz.

Bunlar çoxsaylı nəbatat bağlarından yalnız bir neçəsidir. Onların sırasında Azərbaycanın Mərkəzi Nəbatat bağının da olması qürurvericidir. Gəlin bu bağda gəzintiyə çıxın və qarşınıza çıxan lövhələrdə sizi özünə aludə edən bitkilər haqqında məlumat alın. Bu lövhəciklərdə görəcəksiniz ki, bağda ölkə florasından olan bitkilərlə bərabər, dünyanın müxtəlif yerlərindən - Şərqi Asiya, Şimali Amerika, Aralıq dənizi hövzəsindən və digər yaxın, uzaq yerlərdən gətirilmiş qiymətli ağac, kol, çiçək və bitkilər becərilir. Soğangülü, payızgülü, qarğasoğanı, dağlaləsi, nərgiz, sünbülçiçək, süsən və 400-ə qədər qızılgül növünün kolleksiyası və sairənin "məskən" saldığı bizim Nəbatat bağı dünyanın istənilən analoji yaşıl məkanı ilə yarışa bilər.

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

# Türkiyənin Jandarm Baş Komandanı müavininin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdədir



**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Baş Komandanının müavini ordu generalı Ali Çardakçının başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Çardakçı və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzüb, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Daha sonra qonaqlar Şəhidlər xiyabanındakı "Əbədi məşəl" kompleksini və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər.

İyulun 20-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ordu generalı Ali Çardakçının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazir Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, Ulu Öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

Nazir rəhbərlik etdiyi qurumun Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Baş Komandanlığı ilə münasibətlərin əməkdaşlığın genişləndirilməsinə böyük önəm verildiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Baş Komandanlığının böyük xidməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən ordu generalı Ali Çardakçı Azərbaycana səfərindən, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından, ölkəmizin dinamik, sürətli inkişafından, eyni zamanda Daxili Qoşunların yüksək peşəkarlığa və döyüş qabiliyyətinə malik mobil bir quruma çevrilməsindən məmnun olduğunu bildirib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, "Bir millət, iki dövlət" olaraq Türkiyənin hər zaman Azərbaycanın yanında yer aldığını, ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilib.

Daxili Qoşunların Baş İdarəsində daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovun ordu generalı Ali Çardakçının rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşü olub.

General-leytenant Şahin Məmmədov Türkiyə Jandarm Baş Komandanlığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında dostluq və hərbi əməkdaşlıq münasibətlərinin daha da genişləndiyini qeyd edib, qonaqlara qoşunların Vətən müharibəsindəki döyüş yolu və inkişafı barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində dost və qardaş ölkənin nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış şərait, o cümlədən Bakı şəhərində yerləşən "N" saylı hərbi hissələrlə tanış olub.

# İqtisadi Əməkdaşlıq Təşkilatının Gömrük Xidmətləri Rəhbərləri Şurasının 9-cu iclası keçirilib



**Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional ofisində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Gömrük Xidmətləri Rəhbərləri Şurasının 9-cu iclası keçirilib.**

Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, hibrid formatda keçirilən iclasda Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğız, Türkmənistan, Pakistan, Tacikistan və İran gömrük xidmətlərinin nümayəndələri iştirak edir.

Nümayəndə heyətləri görüşdən əvvəl Fəxri xiyabana gələrək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Şəhidlər xiyabanını da ziyarət edən qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Tədbirin açılışında çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov regional əməkdaşlığın və tranzitin inkişaf etdirilməsində İƏT-in rolundan bəhs edib. Qeyd olunub ki, ölkəmizin "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzərindəki strateji mövqeyi nəzərə alınmaqla Prezident İlham Əliyevin rəhbərliyi ilə nəqliyyat və logistika sahəsində həyata keçirilən irimiqyaslı layihələr beynəlxalq ticarətin və tranzitin inkişafına münbit şərait yaradıb.

Bildirilib ki, İƏT çərçivəsində gömrük xidmətləri arasında işgüzar əlaqələrin inkişafı region ölkələri üçün də yeni iqtisadi imkanlar yaradacaq.

İƏT-in Baş katibinin müavini Sayed Mohsen Esperi təşkilata üzv ölkələr arasında gömrük sahəsində əməkdaşlığın gücləndirilməsinin prosedurların rəqəmsallaşdırılması və asanlaşdırılmasına, sərhədkeçmə proseslərinin sürətləndirilməsinə imkan yaradacağını diqqətə çatdırıb. Həmçinin hüquqpozmalara qarşı mübarizə, qabaqcıl bilik və təcrübələrin paylaşılması, potensialın gücləndirilməsi istiqamətində də mühüm nailiyyətlərin əldə olunacağı bildirilib.

Sonra Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırovun sədrlik etdiyi iclasın gündəliyi qəbul edilib və müzakirələr aparılıb.

Əvvəl İƏT Gömrük Xidmətləri Rəhbərləri Şurasının 8-ci iclasında qəbul edilən qərarlar müzakirə olunub, hesabatlar dinlənilib.

Daha sonra "Qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına dair İqtisadi Əməkdaşlıq Təşkilatının məlumat bazası Sazişi", "Gömrük işi sahəsində qarşılıqlı inzibati yardım haqqında Saziş", "İƏT və ÜGT arasında Memorandum layihəsi və İƏT Fəaliyyət Planı", "İƏT Regionunda Elektron Məlumat Mübadiləsi", "İƏT Regionunda Gömrük məsələlərində potensialın gücləndirilməsi" ilə bağlı məsələlər müzakirə olunub.

# Azərbaycan mətbuatının nümayəndələri Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

Milli mətbuatımızın 148 illiyi və 22 İyul - Milli Mətbuat Günü münasibətilə Azərbaycan Respublikası Audiovizual Şurası, Medianın İnkişafı Agentliyi (MEDİA), Azərbaycan Mətbuat Şurası, çap və onlayn media orqanlarının nümayəndələri iyulun 20-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Azərbaycan milli mətbuatının banisi, "Əkinçi" qəzetinin naşiri və redaktoru, Azərbaycan milli məfkurəsinin əsaslarını yaradanlardan biri olan Həsən bəy Zərdabinin məzarı önünə əklil və tər güllər qoyulub, böyük mütəfəkkirin xatirəsi ehtiramla yad edilib.

# Milli Mətbuat Günü münasibətilə Dövlət Sərhəd Xidməti Aparatında tədbir keçirilib

**22 İyul - Milli Mətbuat Günü münasibətilə Dövlət Sərhəd Xidməti (DSX) Aparatında tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin Milli Mətbuat Günü münasibətilə təbriki çatdırılıb, DSX-nin struktur qurumlarının xidməti-döyüş fəaliyyətinin təşkili, dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin olunması üzrə həyata keçirilən fəaliyyətlər barədə ictimaiyyətin operativ məlumatlandırılması, gənclər arasında hərbi vətənpərvərliyin yüksəldilməsi, sərhədçi peşəsinin təbliği sahəsində kütləvi informasiya vasitələri ilə əməkdaşlığın xüsusi rolu vurğulanıb.

Dövlət Sərhəd Xidmətinin kütləvi informasiya vasitələri ilə əlaqələrinin inkişafından məmnunluq ifadə edilib, faydalı əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminlik bildirilib.

Sonda Dövlət Sərhəd Xidməti rəisinin əmrinə əsasən mətbuat sahəsində əməkdaşlığa verdiyi töhfələrə görə KİV nümayəndələrinin bir qrupu medal və fəxri fərmanlarla təltif edilib.

# Qərbi Azərbaycan İcmasında media nümayəndələri ilə görüş olub

Milli Mətbuat Günü münasibətilə iyulun 20-də Qərbi Azərbaycan İcmasında media nümayəndələri ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli və Qadınlar Şurasının sədr müavini, Əməkdar jurnalist Telli Pənahqızı media nümayəndələrini Mətbuat Günü münasibətilə təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Əziz Ələkbərli son altı ay ərzində media nümayəndələri ilə birlikdə Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həm ölkə daxilində, həm də beynəlxalq miqyasda xeyli işin görüldüyünü bildirib.

Sonda mətbuat nümayəndələrinə təşəkkürnamələr və xatirə hədiyyələri təqdim olunub.

# Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində ilin birinci yarısının yekunlarına dair müşavirə keçirilib



**Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində (XRİTDX) 2023-cü ilin ilk altı ayının yekunlarına həsr olunmuş müşavirə keçirilib.**

XRİTDX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclası giriş sözü ilə açan xidmət rəisi general-leytenant İlqar Musayev dünyada gedən mürəkkəb ictimai-siyasi proseslərə və çətin geosiyasi vəziyyətə baxmayaraq, Azərbaycan Prezidentinin uzaqgörən siyasəti nəticəsində respublikamızın iqtisadiyyatında mühüm uğurların əldə olunduğunu vurğulayıb.

Müşavirədə Azərbaycan Respublikası Prezidentinin informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsinin inkişafına xüsusi diqqət və qayğısı qeyd olunub və bunun nəticəsində hesabat dövründə bu sahə üzrə bir sıra önəmli sərəncam və fərmanların imzalandığı, müvafiq qərarların qəbul edildiyi bildirilib.

Hesabat dövründə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən dövlət orqanlarının xüsusi dövlət rabitəsi, hökumət rabitəsi, xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemləri və şəbəkələri ilə təmin edilməsi, onların internet şəbəkəsi ilə əlaqəsi və internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsi, istismarı, təhlükəsizliyi və inkişafı, o cümlədən digər sahələrdə görülən işlər, mövcud nöqsanlar və qarşıda duran vəzifələr haqqında ətraflı danışılıb.

İ.Musayev Ümummilli Liderin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə elan olunmuş "Heydər Əliyev İli"ndə xidmət tərəfindən uğurla və davamlı surətdə həyata keçirilən bir sıra tədbirlər haqqında məlumat verib.

Sonda Silahlı Qüvvələr Günü münasibətilə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin bir sıra əməkdaşları təltif edilib.

# *XİN:* "Paşinyanın son çıxışı Ermənistanın sülh müqaviləsi danışıqlarına maneçilik törətmək niyyətini göstərir"

**Ermənistanın baş naziri Nikol Paşinyanın iyulun 20-də hökumətin iclası zamanı çıxışında, Brüsseldə liderlər səviyyəsində keçirilmiş görüşə istinadən Laçın yolu ilə bağlı son 8 ay ərzində təkrarladıqları iddianı bir daha xüsusi vurğulaması Ermənistan tərəfinin bu məsələdən siyasi məqsədləri üçün istifadə etməklə yanaşı, son zamanlar irəliləməkdə olan sülh müqaviləsi danışıqlarına maneçilik törətmək niyyətini nümayiş etdirir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı bəyanatında yer alıb.

Bildirilib ki, Vətən müharibəsindən sonra Laçın yolunda Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət sübut olunaraq, bu fəaliyyətin dayandırılmasına Azərbaycan tərəfindən çağırışlar edildiyi hər kəsə məlumdur. Bu fəaliyyətə məhəl qoyulmaması nəticəsində Azərbaycan tərəfi beynəlxalq hüququn norma və prinsipləri, eləcə də Azərbaycan qanunvericiliyi çərçivəsində Laçın sərhəd-buraxılış məntəqəsini yaradaraq son bir neçə ay ərzində həm yüklərin, həm də erməni sakinlərin şəffaf və tənzimlənən qaydada keçidini təmin edib. Bu xüsusda məntəqənin mövcudluğunun yolun bağlanması kimi təqdim edilməsi tamamilə yanlış yanaşmadır. Hətta Beynəlxalq Ədalət Məhkəməsi 6 iyul tarixli qərarı ilə Ermənistan tərəfinin məntəqənin aradan qaldırılması ilə bağlı müraciətini yekdilliklə rədd edərək, bu iddianın əsassız olduğunu təsdiqlədiyi məlumdur. Ermənistan tərəfinin 15 iyun tarixində məntəqəni atəşə tutması, Azərbaycan sərhədçisini yaralaması, qaçaqmalçılıq cəhdləri etməsi Ermənistanın son 30 ildə Azərbaycan ərazilərinə qarşı təcavüzü və qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini göstərib, bununla Laçın məntəqəsinin labüdlüyü bir daha təsdiqlənib.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan tərəfindən təklif olunan "Ağdam-Xankəndi" yolunun yüklərin daşınması üçün vacib olduğu fikrinə məhəl qoymayan Ermənistan tərəfinin hər vəchlə bu yoldan imtina etməsi bölgədə "gərgin humanitar vəziyyət" iddiasının əsassız olduğunu və Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini sübuta yetirir.

Azərbaycanın bölgədə "etnik təmizləmə" həyata keçirmək istiqamətində addımlar atdığı barədə Ermənistan tərəfinin iddiası olduqca yanlış və təhlükəlidir. Azərbaycanlılara qarşı kütləvi qırğınlar və deportasiyalar həyata keçirən Ermənistandan fərqli olaraq, Azərbaycan heç zaman erməni sakinlərə qarşı etnik təmizləmə siyasəti həyata keçirməyib. Qarabağı Azərbaycan ərazisi kimi tanıyan Ermənistanın baş naziri erməni sakinlərin Azərbaycana reinteqrasiyasını təşviq etmək əvəzinə, dialoqun hansı formada həyata keçirilməsinə dair şərtlər irəli sürməsi, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı addım kimi qiymətləndirilir və qəbuledilməzdir.

Həmçinin vurğulanıb ki, Azərbaycan və Ermənistanın sərhədləri hansı çərçivədə delimitasiya etməsindən asılı olmayaraq, Ermənistanın erməni silahlı qüvvələri tam olaraq Azərbaycan ərazisindən çıxarılmaq öhdəliyini yerinə yetirməməsi, əraziyə maliyyə dəstəyini davam etdirməsi və ərazi iddialarını müxtəlif məktublarda, bəyanatlarda və çıxışlarda vurğulaması şəraitində prosesin uğursuzluğa düçar olmasına çalışdığı hər kəsə aydındır və bu istiqamətdə manipulyasiyalar əsassızdır.

Azərbaycan tərəfi yuxarıda qeyd edilən istiqamətlər üzrə Ermənistan ilə sülh prosesinin təşəbbüskarı kimi bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasında maraqlıdır, eyni zamanda danışıqlar prosesində fəal tərəfdir. Ermənistan tərəfi sülhdə maraqlıdırsa, sülh prosesinə maneçilik törədən səylərdən əl çəkməlidir.

# Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın üzvləri bəlli olub

**Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya seçkilərin ikinci mərhələsi keçirilib. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, qanunvericiliyə müvafiq olaraq tələb olunan səs çoxluğunu toplamış 6 namizəd İctimai Şuranın üzvü seçilib.**

Belə ki, Milli Məclisin deputatı, professor, Əməkdar elm xadimi Cəfərov Nizami Qulu oğlu, Allahyarlı Nihad Vüqar oğlu ("DAVAM" Gənclər Hərəkatı İctimai Birliyi), Bəbirova Ülviyyə Firudin qızı ( "Mədəniyyət Könüllüləri" İctimai Birliyi), Nəzərova Adilə Həsən qızı ( "Kitab evi" İctimai Birliyi), Əməkdar incəsənət xadimi Salayev Ayaz Ramiz oğlu, Verdiyeva Bəyimxanım İsfəndiyar qızı ("Xan Şuşinski" Fondu) Mədəniyyət Nazirliyi yanında İctimai Şurada fəaliyyət göstərəcəklər.

Xatırladırıq ki, iyulun 17-də Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya seçkilərin birinci mərhələsi keçirilib, qanunvericiliyə müvafiq olaraq tələb olunan səs çoxluğunu toplamış Yolçuyev Əkbər Mehdi oğlu (Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü), Mustafayeva Samirə Vəli qızı ("Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyi), Qədirov Vuqar Kərim oğlu (Aydınlar Ocağı" Humanitar İctimai Birliyi) Şuraya üzv seçiliblər.

Hər iki seçkinin nəticəsi olaraq Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya ümumilikdə 9 üzv seçilib.

◆ Mətbuat və həyat

# JURNALİSTİKAMIZIN "MEDİA SAVADSIZLIĞI" PROBLEMİ



Adətən, bolluq ucuzluq yaradır.

Azərbaycanda mətbuat və söz azadlığının mövcudluğu, qəzet açmağın, sayt yaratmağın son dərəcə asanlaşdırılması da media subyektləri bolluğuna səbəb olmuşdur.

**Təəssüf ki, bu bolluq keyfiyyətdən çox, kəmiyyətdə özünü göstərdiyindən sözün ucuzlaşması prosesi də sürətlə getmişdir.**

Sözün ucuşlaşması isə özünü ən əvvəl media savadsızlığında büruzə verir.

Müasir jurnalistikamızın bəlasına çevrilən "media savadsızlığı"nın isə səbəbləri çoxdur.

"Media savadsızlığı"nın müxtəlif təzahür formalarından, mətbuatı və həqiqi jurnalistləri nüfuzdan salan bir neçə mühüm məqamdan söhbət açmaq istəyirik.

❖ ❖ ❖

*Jurnalistika söz sənətidir, bu sahədə çalışanların istifadə etdikləri "material" və hazırladıqları son "məhsul" da sözdən ibarət olur.*

*Amma unutmayaq ki, sözə can verən, sözü dəyərə mindirən fikirdir.*

*Sözlə ağıllı, məntiqli fikir ifadə olunmayanda o, quru, cansız müqəvvaya bənzəyir.*

**Ağıllı fikirləri isə savadlı, sahəyə dair zəruri bilgilərə malik, sağlam təfəkkürlü, həm də vətənpərvər insanlar söyləyə bilərlər!**

Söz hesabına asan yolla pul qazanmaq üçün informasiya "dərya"sına baş vuranlar yox.

Əlbəttə, dənizə girib dayaz yerdə baş girləyənlər də çox olur...

Amma belələri söz xiridarlığından uzaq olduqlarından yalnız suyu bulandırırlar.

**Media savadsızlığı probleminin başlıca səbəblərindən biri təhsil aldığı, diplomuna malik olduğu sahədə uğur qazana bilməyənlərin, jurnalistikada piyada olanların bu sahəyə kütləvi axını ilə bağlıdır.**

Belə bir axının isə bir neçə mühüm səbəbi var.

❖ ❖ ❖

**Dünya yaranandan doğru ilə yalan, ədalətlə haqsızlıq, xeyirlə şər arasında daim mübarizə gedir.**

Zaman-zaman gah bir tərəf üstün gəlir, gah da digəri.

*Şərlə mübarizə aparmamaq, əslində, onu müdafiə etmək deməkdir.*

*Şəri ifşa etməmək, xeyiri arxasız, köməksiz qoymağa bərabərdir.*

*Şərə göz yummaq haqsızlığa, böhtana dəstək verməkdir.*

**Ədalətsizliyə, yalana, böhtana, şərə o insanlar açıq etiraz edirlər ki, mənən daha yüksəkdə dayanırlar!**

*Qorxacaqları, çəkinəcəkləri, ehtiyat edəcəkləri yerləri yoxdur!*

*Düz sözü deyərək "pis kişi" olmaqdan qorxmurlar!*

**Şərçilər nə qədər çox olsalar da, birləşib haqqı, ədaləti, doğrunu, təmizi təkləsələr də, sonda heç vaxt qalib ola bilmirlər!**

Hərdən qazandıqları uğurlar isə müvəqqəti, qısaömürlü olur.

*Nəfislərinin qulu olduqlarından, haqq-ədaləti daim pula satdıqlarından insanların gözünün içinə dik baxa bilmirlər.*

Kol dibində yataraq qorxaqcasına donquldayırlar, yaxud qarasına danışaraq kölgəyə hürürlər.

Milli mətbuatda bu iki qütb qəzet yaranan gündən formalaşıb.

İndi də davam edir, üstəlik, yeni məkanda - gah saytlarda, gah da sosial şəbəkələrdə.

Bəli, Həsən bəy Zərdabiyə də qaragüruh həcv yazıb;

Mirzə Cəlili də ölümlə hədələyiblər;

Üzeyir bəydən də donosbazlıq ediblər.

**Lakin şər qüvvələr tarixin qara arxivində qalıblar.**

**Həsən bəy, Mirzə Cəlil, Üzeyir bəy isə bu gün də yaşayırlar, sabah da yaşayacaqlar!**

❖ ❖ ❖

*Söz azadlığı, düşüncə azadlığı, vicdan azadlığı...*

*Əsrlər boyu bəşəriyyətin ən böyük arzularından olub!*

*Çünki bu azadlıqlar insan üçündür, insana xidmət edir.*

**Lakin azad söz qərəzli, qeyri-obyektiv və vicdansızdırsa, onda necə olsun?!**

**Azad söz xidmət etməli olduğu insanı təhqir edirsə, şərəf və ləyaqətini alçaldırsa, ona şərböhtan atırsa, onda necə olsun?!**

**Əgər azad söz tamahının qulu olanların, "5-ci kolon"a xidmət edənlərin, insan ləyaqətindən məhrum olanların əlində "kəsici alət"ə çevrilirsə, onda necə olsun?!**

*Belədə dünyanın əşrəfi sayılan, vətəninə, xalqına, dövlətinə xidmət edən insanın yanında olmalıyıq, yoxsa "söz azadlığı"ndan murdar məqsədləri üçün istifadə edənlərin?!*

* Hələ cümlə düzüb-qoşmaq, fikrini pis-yaxşı ifadə etmək jurnalistika deyil!

* Ordan-burdan yalan-doğru informasiya oğurlayaraq saytı doldurmaq jurnalistika deyil!

* Adi mövzudakı yazıları "sensasiya" kimi təqdim etmək jurnalistika deyil!

* Təkcə xəbər hazırlamaq və bir sual, bir cavablıq "müsahibə" yazmaq jurnalistika deyil!

* İnsanlara şər-böhtan atmaq, kimləri isə şantaj etmək jurnalistika deyil!

* İnsanları təhqir etmək, onların şərəf və ləyaqətlərini aşağılamaq jurnalistika deyil!

* Yetənə yetib, yetməyənə bir daş ataraq özünü cəmiyyətə "nüfuzlu", "savadlı", "ustad" jurnalist kimi təqdim etmək jurnalistika deyil!

* Milli maraqları, ölkənin informasiya təhlükəsizliyini və nüfuzunu nəzərə almadan dövləti hədəfə çevirmək, hər hansı səbəbdən Azərbaycanın nüfuzuna xələl gətirən fəaliyyət göstərmək, "5-ci kolon"a qulluq göstərmək də jurnalistika deyil!

**Bütün bunlar jurnalistikanın çətiri altına girərək şəxsi maraqları təmin etmək, ölkəmizdə mövcud olan mətbuat və söz azadlığından sui-istifadə, antimilli fəaliyyətdən sığortalanmaq cəhdləridir.**

Jurnalistikanın qapısı açıqdır.

Bu qapıdan hər kəs sərbəst içəri girə bilər.

*Ancaq bura gələndə obyektivliyi, tərəfsizliyi və qərəzsizliyi, təmənnasızlığı və ləyaqət hissini, ən əsası vicdanı özü ilə gətirməyi kimsə unutmamalıdır! Təbii ki, varsa.*

❖ ❖ ❖

"Don Kixot" Servantesin parodiya janrında yazdığı məşhur romandır.

Kitabsevərlərin hamısı bu əsərlə tanışdır.

Cəngavər romanları dəbdə olan vaxtlar əlinə qələm götürən bu mövzuda "əsər" yazırdı.

Servantes də naşıların primitiv nəsr yaradıcılığını bu sayaq lağa qoyub.

Əsərin qəhrəmanı Don Kixot özünü əsil-nəcabətli cəngavər kimi təsəvvür edir, cəngavərliyin bütün "qayda"larını öz ağlı ilə (olmayan ağlı) yerinə yetirir, həyatının sonunadək əsl cəngavər olduğuna inanır.

**Bu gün bəzi saytlarda "Don Kixot" xəstəliyinə yoluxmuş jurnalistlər "fəaliyyət" göstərirlər.**

**Özlərindən müştəbeh, iddialı, hər yazılarını "şedevr" sayanlar...**

"Don Kixot xəstəliyi" belələrində müasir formada təzahür edir:

* Hamısı özünü "kamil", "dahi" jurnalist sayır, hətta jurnalist təhsili olmayanlar belə.

* Dövlət qurumlarını, yüksəkçinli dövlət məmurlarını hədəf seçib mütəmadi tənqid etməklə (çox zaman da ümumi şəkildə, qarasına və dedi-qodu formasında) "cəsarətli", "qorxmaz", "prinsipial" olduqlarını gözə soxmağa çalışırlar.

* Öyüd-nəsihət verməyi, yol göstərərək hamının başına "ağıl qoymağı" çox sevirlər.

* Özlərini daha "istedadlı", daha "çoxbilən", daha "sanballı" təqdim etməkdən ötrü özlərindən yüksəkdə olan jurnalistləri qaralamağı, onlara "ağsaqqalsayağı" irad tutmağı da xoşlayırlar.

* Elə düşünürlər ki, özlərini belə "müdrik", "ağırçəkili" aparmaqla hamı onları ürəklərindən keçirdikləri kimi qəbul edəcək.

Amma hansısa şairin yazdığı kimi: "Xəstə çox şey dilər, amma ona qismət olmaz..."

**Jurnalist ədasıyla, iddiasıyla yox, yazısı, düzgün əqidəsi, obyektiv, ədalətli mövqeyi, qərəzsiz, təmənnasız tənqidi yazıları ilə hörmət qazanar, tanınar və qəbul edilə bilər!**

**Əks halda Don Kixot kimi ictimai gülüş hədəfinə çevrilər.**

❖ ❖ ❖

Hər dəfə "sosial media", "sosial jurnalistika" ifadəsini eşidəndə nədənsə yadıma məşhur Azərbaycan atalar sözü düşür: "Kasıb itinin adını Gümüş qoyar".

*Medianın qanunları və prinsiplərinin daim pozulduğu bir platformaya media demək olarmı?*

*Əgər jurnalistikanın peşə davranışı qaydalarına, janr tələblərinə əməl olunmursa, belə fəaliyyətə jurnalistika demək olarmı?*

**Mahiyyət adda ifadə olunmur, əməldə görünür!**

*Sosial media sözdən sərbəst istifadə edilən hüdudsuz bir məkandır.*

*Əgər bu məkanda müxtəlif operativ xəbərlərə rast gəliriksə, ona jurnalistika deməli və elə də qəbul etməliyik?!*

Sovet dövründə bir "simsiz teleqraf" anlayışı var idi.

Buna "ağız xəbərləri" də deyilirdi.

Kəndin ayağında baş verən hadisələrdən hamı dəqiqələr ərzində başında da xəbər tuturdu.

Naqilsiz, hava ötürücüsüz, texnikasız bir zamanda.

*Lakin heç zaman onlara heç kəs nə jurnalistika dedi, nə mətbuat, nə də radio-televiziya!*

Çünki ictimai əhəmiyyət kəsb etməyən hadisə ən yaxşı halda yenilikdir, amma mətbu xəbər deyil!

**Dedi-qodu, dalca danışmaq, qeybət, şər-böhtan, insanın şərəf və ləyaqətinə toxunan yazılar jurnalistikanın janrları hesab olunmur.**

**İnsanlar arasında baş verən bütün olaylar, xüsusən etik normaya sığışmayan hadisələr heç zaman qəzet səhifəsinə, radio-televiziya kanallarına çıxarılmamalıdır.**

Bu gün hərənin açarı-qıfılı cibində olan internet adlı qəzet, jurnal, radio və televiziyası var.

*Özü yazır, özü "dərc edir", özü insanlara çatdırır.*

*Burada medialıq, jurnalistikalıq nə var ki?!*

*Ən yaxşı halda buna hobbi, əyləncə demək daha doğru olar.*

*Amma bu "əyləncə jurnalistikası" da həddini aşmamalı, insanların şəxsi həyatlarına müdaxilə etməməli, şərəf və ləyaqətin aşağılanması hallarına yol verməməlidir!*

Hansısa "sayt rəhbəri", özünü "jurnalist" adlandıran əliqələmli çox oyunlardan çıxa bilər!

Hətta:

* Özünü "dahi jurnalist" adlandıra;

* "Sanballı", "ağır-ağayana" redaktor hesab edə;

* Hamının başına "ağıl qoymağa", hər kəsə yol göstərməyə haqqı çatan şəxs kimi təqdim edə;

* Yüksəkçinli məmurları tənqid etməklə, "plagiatlıq"da ittiham etməklə köhnə senzor funksiyasını yerinə yetirə;

* Necə deyərlər, mətbuatın (əslində, "sosial medianın") "qanuni oğru"su kimi davrana bilər.

**Amma bu o demək deyil ki, hamı onu özünü təqdim etmək istədiyi kimi qəbul edəcək!**

Bu, yuxarıda bəhs etdiyimiz Don Kixot arzusudur.

Arzu ilə gerçəklik arasında isə bəzən məsafə o qədər uzun olur ki, gedib başa çıxa bilmirsən.

**Ağıl yaşda olmur, başda olur!**
**İnsana isə bütün yaşlarda ağıl gərəkdir!**

❖ ❖ ❖

*Kino teatrı, televiziya kinonu uda bilmədiyi kimi, elektron media da qəzetləri yeyə bilməyəcək!*

*Heç sosial şəbəkə də saytları yox etməyəcək!*

*Hərəsinin öz yeri, öz vəzifəsi var.*

"Köhnə"ni təzəyə qurban vermək olmaz!

Xüsusən də "köhnə" adlandırdığımız hələ tam köhnəlməyibsə!

**Azad sözə, mətbuata xidmət həm də onu xoşagəlməz meyillərdən qorumaq, onun qayda və prinsiplərinə dəqiq əməl etməkdir!**

*Bu gün Azərbaycanın media məkanında qabarıq görünən, ona ciddi ziyan vuran və həllini gözləyən bir sıra aktual problemlər mövcuddur.*

*Birincisi* elektron medianın "sensasiya xəstəliyi"dir.

Bəzi saytlar "giriş sayı"nı süni şəkildə artıraraq "qabaqcıl" olduqlarını sübuta yetirmək üçün "adi və sadə" xəbərləri belə "sensasiya libasında" təqdim etməyi sevirlər.

Xəbəri "sensasiyalaşdırmaq" üçün "çığıran" sərlövhələrdən və digər primitiv fəndlərdən gen-bol istifadə edirlər.

Artıq oxucu belə hiylələrə bələd olduğundan daha aldanmır və süni sensasiyalara uymur.

*İkincisi* milli mətbuatımızın təməl daşı sayılan qəzetlərin artıq "keçmiş", "köhnəlik" sayılaraq vaxtından qabaq "dəfn" edilməsidir.

Hər bir ölkənin qədimdən məşhur qəzetləri olub və insanlar ona inanıb alışıblar.

İndiyədək heç bir ölkədə belə qəzetlərdən heç biri bağlanmayıb, ən pis halda tirajı azalıb.

Bizdə isə qəzetlərin sıradan çıxarılması üçün mümkün olan hər şey edilir!

Üstəlik, nə reklam bazarı var, nə də təsisçi öhdəliyi.

Artıq rayon qəzetləri son günlərini yaşayırlar.

**Regionlarda daha dövlətin maraqlarını qoruyacaq heç bir mətbu orqan qalmayıb!**

**Beləliklə, jurnalist peşəsi "paytaxt peşəsi"nə çevrilir. Kim onunla məşğul olmaq istəsə, Bakıda yaşamalıdır.**

*Üçüncüsü* sosial şəbəkə statuslarının az qala mətbuatın çıxışlarından üstün tutulmasıdır.

Qəzet, televiziya tənqid edir, bir çoxunun tükü belə tərpənmir.

Elə ki kimsə nəsə yazıb, yaxud çəkib sosial şəbəkəyə qoyursa, aləm qarışır, hələ xəbərin və süjetin həqiqi olub-olmadığını dəqiqləşdirməmiş "tədbir görməyə" başlayırlar.

*Dördüncüsü* müasir jurnalistikanın ən böyük nöqsanı peşəkarlığın son dərəcə aşağı düşməsidir. Bu hal saytlarda daha çox müşahidə olunur.

**Kadr hazırlığındakı problemlər, bu sahəyə axışanların jurnalistikanın hətta əlifbasını belə öyrənməyə təşəbbüs göstərməmələri, hikkə və "mənəm-mənəm"likdən doğan iddialar vəziyyəti daha da acınacaqlı edir.**

*Beşincisi* reklam bazarının yoxluğudur.

Telekanallar reklam içində "boğulduqları" halda qəzet və saytlar ona həsrətdirlər.

**Bu boşluğu aradan qaldırmaqla kim və necə məşğul olmalıdır, bilən yoxdur.**

*Altıncısı* "reket jurnalistika"sına qarşı mübarizənin dayandırılmasıdır.

Jurnalistlər yeganə peşə sahibləridir ki, aralarındakı yaramazları müəyyənləşdirərək açıq şəkildə, "qara siyahı" formasında cəmiyyətə özləri təqdim edirdilər.

**Buna niyə son qoyuldu, anlamaq olmur.**

**Üstəlik, "reket jurnalistləri"nin mövcudluğu barədə cəmiyyətdən tez-tez gələn siqnallar, ayrı-ayrı fərdlər barəsində qaldırılan cinayət işləri, ən nəhayət, jurnalist adının təmizliyinin qorunması bu mübarizənin aktuallığına dəlalət edir.**

❖ ❖ ❖

O yerdə ki iş var, orada nöqsan da olur - zamanın sınağından çıxmış məşhur kəlamdır!

Uğurlu fəaliyyət isə təkcə olanları artırmaq deyil, həm də çatışmazlıqları müəyyənləşdirib aradan qaldırmaqdır!

**Biz Azərbaycan jurnalistikasını yüksək peşəkar, ağıllı, operativ, peşə davranışı qaydalarına hörmətlə yanaşan, həqiqəti söyləyən, obyektiv, qərəzsiz və vətənpərvər bir jurnalistika kimi görmək istəyirik!**

**Bəxtiyar SADIQOV**

# Milli mətbuatımızın 148 illiyinə həsr olunmuş konfrans keçirilib

**İyulun 20-də Bakıda Azərbaycan milli mətbuatının 148 illiyinə həsr olunmuş "Media qlobal transformasiyalar dövründə: ənənələrdə varislik, jurnalistika prinsipləri və ictimai maraqlar" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Audiovizual Şurasının, Medianın İnkişafı Agentliyinin (MEDİA), Mətbuat Şurasının birgə təşkilatçılığı ilə reallaşan konfrans Dövlət himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş vətən övladlarının xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfransda çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid Ulu Öndər Heydər Əliyevin mediaya diqqət və qayğısından danışıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin sovet vaxtı həyata keçirdiyi işlər məhz müstəqillik yolunda atılmış addımlar idi. Müstəqillik dövründə Ümummilli Liderin mətbuata verdiyi önəmin şahidi olduq. Həmin dövrdə 100 ildən artıq mövcud olan senzura ləğv edildi, mətbuat üçün yeni şərait yaradıldı. Mətbuatın özünü tənzimləməsi istiqamətində qərarlar, qanunlar qəbul edildi. Ulu Öndər həmçinin mətbuat nümayəndələri ilə mütəmadi görüşlər keçirirdi.

Rəşad Məcid qeyd edib ki, Ümummilli Liderin mətbuatla bağlı həyata keçirdiyi tədbirlər onun siyasi varisi Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Müasir dövrdə media sahəsində islahatların dərinləşməsi, Medianın İnkişafı Agentliyinin yaranması, "Media haqqında" yeni qanunun qəbulu dövlət başçısının bu sahəyə verdiyi qiymətin təzahürüdür.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli diqqətə çatdırıb ki, Zəfərlə başa çatan Vətən müharibəsindən dərhal sonra Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmizdə media sahəsində islahatların dərinləşməsi prosesi başladı. Bu islahatlar medianın inkişafının dövlətimiz üçün önəminin göstəricisi idi.

O bildirib ki, "Media haqqında" qanunun və aparılan islahatların bu sahəyə gətirdiyi yeniliklərdən biri bütün media subyektlərinin biznes mühitinə keçidini sürətləndirmək idi. Bu islahatlarla Azərbaycan mətbuatında vergi tətilləri tətbiq edildi, media reyestri yaradıldı. Media qanunvericiliyinin təkmilləşdirilməsinin, media islahatlarının əsas məqsədi bu sahədə inkişafa nail olmaqdır. Bu proses davamlı xarakter daşıyacaq.

Audiovizual Şuranın sədri İsmət Səttarov qeyd edib ki, XIX əsrdə "Əkinçi" qəzetinin çapı ilə möhkəm təməllər üzərində bünövrəsi qoyulan Azərbaycan mətbuatı XXI əsrdə də öz missiyasını uğurla davam etdirir. Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra zamanın bütün sınaqlarından









üzüağ çıxan milli mətbuatımız üçün də yeni dövr başlayıb. Mediamızın bu dövrünün Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyən İsmət Səttarov deyib ki, Ümummilli Liderin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev mediaya doğma münasibət sərgiləyir. Dövlət başçısının diqqəti nəticəsində mediaya sistemli dəstək göstərilir. Qeyd edilib ki, media sahəsində aparılan bütün islahatların kökündə dayanan amil isə dövlətə və dövlətçiliyə xidmət, medianın inkişafına nail olmaqdır. Bu gün peşə bayramını iş başında keçirən jurnalistlər həm cəmiyyəti informasiya ilə təmin edirlər, həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük rol oynayırlar. İnformasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə media işçilərinin üzərinə daha böyük məsuliyyət düşür - qloballaşan dünyada qlobal təhdidlərə qarşı çıxmaq, texnoloji inkişafın verdiyi bütün imkanlardan istifadə edərək Azərbaycan həqiqətlərini dünyada səsləndirmək. "Düşünürəm ki, jurnalistlərimiz, media nümayəndələrimiz bu missiyanın öhdəsindən fəxrlə və böyük məsuliyyətlə gələcəklər", - deyə İ.Səttarov vurğulayıb.

Sonra Mətbuat Şurasının sədr müavini Səadət Məmmədovanın moderatorluğu ilə "Azərbaycanın milli mətbuatı: ənənə və müasir trendlər" mövzusunda panel iclas keçirilib. İclasda "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı "Milli mənlik şüurumuzun oyanışı və müstəqil dövlət quruculuğunda medianın rolu", "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov "Ulu Öndər Heydər Əliyevin media islahatları: qanunvericilik və plüralizm", Medianın İnkişafı Agentliyinin əməkdaşı Pərvanə İbrahimova "Media savadlılığı cəmiyyətin informasiya təhlükəsizliyinin vacib elementi kimi", Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli "Jurnalist peşəkarlığında xarici standartlar: beynəlxalq media qurumları ilə təmaslar və təcrübə mübadiləsi" mövzularında çıxışlar ediblər.

Konfrans işini "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızının moteratorluğu ilə "Mediada müasir transformasiya, informasiyalı cəmiyyət amili və ictimai maraqlar" adlı panel iclası ilə davam etdirib. İclasda Audiovizual Şuranın Aparat rəhbəri Fazil Novruzovun "Müasir Audiovizual kontent: ənənəvilik və müasirlik", Naxçıvan Muxtar Respublikasının "Televiziya və Radio Verilişləri" QSC-nin sədri Sahil Tahirlinin "Naxçıvan mətbuatı tarixdən bu günə və müasir tendensiyalar", "Technote" şirkətinin rəhbəri Fərid Pərdəşünasın "Süni intellekt jurnalistikanı necə dəyişir?" və "Aran" qəzetinin baş redaktoru Məhsəti Musan "Bölgə mediasının fəaliyyətində yeni xüsusiyyətlər" mövzularında məruzələri dinlənilib.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 231

QƏRAR

Bakı şəhəri, 18 iyul 2023-cü il

## “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı”nın təsdiq edilməsi haqqında

"İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin "İnvestisi-yaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 iyul tarixli 231 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

## İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin

## SİYAHISI

| XİF MN üzrə kod | Mal mövqeyinin adı | Qeyd |
|---|---|---|
| | **QRUP 73. QARA METALLARDAN MƏMULATLAR** | |
| 7309 00 | İstənilən maddələr üçün (sıxılmış və ya mayeləşdirilmiş qazdan başqa), qara metallardan rezervuarlar, sisternlər, çənlər və analoji qablar, həcmi 300 l-dən çox olan, üzlüklü və ya termoizolyasiyalı və ya onlarsız, lakin mexaniki və ya istilik-texniki avadanlıqsız | |
| 7321 | Qara metallardan qızdırıcı sobalar, qızdırıcı-bişirmə sobaları və yeməyin hazırlanması üçün sobalar (mərkəzi isitmənin köməkçi qazanları ilə sobalar daxil olmaqla), fritür qazanları, barbekülər (manqallar), plitələr üçün odluqlar, yeməyin qızdırılması üçün qızdırıcılar və analoji qeyri-elektrik məişət cihazları və onların hissələri | |
| 7322 | Qara metallardan qeyri-elektrik qızdırma ilə mərkəzi isitmə üçün radiatorlar və onların hissələri; qara metaldan, quraşdırılmış ventilyatorla və ya mühərrikli hava üfürənlərlə təchiz olunmuş qeyri-elektrik qızdırma ilə hava qızdırıcıları və isti havanın verilməsi üçün (həmçinin, təzə və ya kondisiyalaşdırılmış havanın verilməsi üçün qurğular daxil olmaqla) paylayıcı qurğular və onların hissələri | |
| 7324 | Qara metallardan sanitar-texniki avadanlıq və onun hissələri | |
| | **QRUP 82. QİYMƏTSİZ METALLARDAN ALƏTLƏR, QURĞULAR, BIÇAQ MƏMULATLARI, QAŞIQLAR VƏ ÇƏNGƏLLƏR; ONLARIN QİYMƏTSİZ METALLARDAN OLAN HİSSƏLƏRİ** | |
| 8207 | Metalın ekstruziyası və ya məftil çəkmə üçün filyerlər də daxil olmaqla əl alətləri üçün mexaniki ötürücülü və ya onsuz və ya dəzgahlar üçün (məsələn, presləmə, ştamplama, doğrama, yiv açma, deşmə, oyma, çəkmə, frezləmə, torna emalı və ya vintləmə üçün) dəyişdirilən işçi alətləri, qaya süxurlarının və ya torpağın qazılması üçün alətlər | |
| 8208 | Maşınlar və ya mexaniki qurğular üçün bıçaqlar və kəsici tiyələr | |
| | **QRUP 83. QİYMƏTSİZ METALLARDAN HAZIRLANAN DİGƏR MƏMULATLAR** | |
| 8301 | Qiymətsiz metallardan asma və taxma qıfıllar (açarla, kod kombinasiyası və ya elektriklə işləyən); qiymətsiz metallardan hazırlanmış qıfıllarla birləşdirilmiş siyirtmələr və siyirtməli çərçivələr; yuxarıda göstərilmiş istənilən məmulatlar üçün qiymətsiz metallardan açarlar | |
| | **QRUP 84. NÜVƏ REAKTORLARI, QAZANLAR, AVADANLIQ VƏ MEXANİKİ QURĞULAR; ONLARIN HİSSƏLƏRİ** | |
| 8402 | Buxar qazanları və ya digər buxar yaradan qazanlar (aşağı təzyiqli buxar da yarada bilən mərkəzi istilik su qazanlarından başqa); qaynar su qazanları | |
| 8403 | 8402 mal mövqeyinin qazanlarından başqa, mərkəzi istilik qazanları | |
| 8404 | 8402 və ya 8403 mal mövqeyinin qazanları ilə birlikdə istifadə olunan köməkçi avadanlıq (məsələn, ekonomayzerlər, buxar qızdırıcıları, qurum kənarlaşdırıcıları, qaz rekuperatorları); buxar-su və ya digər buxar güc qurğuları üçün kondensatorlar | |
| 8405 | Təmizləyici qurğularla və ya onlarsız qaz generatorları və ya su qazı generatorları; təmizləyici qurğularla və ya onlarsız asetilen qazı generatorları və analoji qaz generatorları | |
| 8406 | Su buxarı turbinləri və digər buxar turbinləri | |
| 8407 | Dövrü və ya irəli-geri hərəkət edən porşenli, qığılcımla alışan daxili yanma mühərrikləri | |
| 8408 | Sıxılmadan alovlanan porşenli daxili yanma mühərrikləri (dizellər və yarımdizellər) | |
| 8409 | Yalnız və ya əsasən 8407 və ya 8408 mal mövqeyinin mühərrikləri üçün nəzərdə tutulmuş hissələr | |
| 8410 | Hidravlik turbinlər, su təkərləri və onlar üçün tənzimləyicilər | |
| 8411 | Turboreaktiv və turbovintli mühərriklər, digər qaz turbinləri | |
| 8412 | Digər mühərriklər və güc qurğuları | |
| 8413 | Məsrəfölçənlərlə və ya onlarsız maye nasosları; maye qaldırıcıları | |
| 8414 | Vakuum və ya hava nasosları, hava və ya qaz kompressorları və ventilyatorlar; filtrli və ya filtrsiz, ventilyasiyalı və ya hava dövrlü sorucu qalpaqlar və ya ventilyasiyalı dolablar; filtrli və ya filtrsiz bioloji təhlükəsizlik üçün qaz buraxmayan dolablar | (8414 51 000 0 kodu istisna olmaqla) |
| 8415 | Rütubəti ayrıca tənzimləyə bilməyən kondisionerlər daxil olmaqla mühərrikli ventilyatorla və havanın temperaturunu və rütubətini ölçən cihazlarla təchiz olunmuş havanın kondisiyalaşdırılması üçün qurğular | |
| 8416 | Maye yanacaq, tozlandırılmış bərk yanacaq və ya qaz üçün qızdırma odluqları; mexaniki ocaq qəfəsli şəbəkələr, mexaniki kül kənarlaşdırıcıları daxil olmaqla mexaniki odluqlar və analoji qurğular | |
| 8417 | Zibilyandıran sobalar daxil olmaqla qeyri-elektrik sənaye və ya laboratoriya sobaları və kürələri | |
| 8418 | Soyuducular, dondurucular və elektrik və ya başqa tipli digər soyuducu və ya dondurucu avadanlıq; 8415 mal mövqeyinin havanın kondisiyalaşdırılması üçün qurğulardan başqa, istilik nasosları | |
| 8419 | Məişətdə istifadə olunan maşınlar və avadanlıq istisna olmaqla isitmə, bişirmə, qızardılma, distillə etmə, rektifikasiya, sterilizasiya, pasterizasiya, buğa vermə, qurutma, buxarlandırma, kondensasiya və ya soyutma kimi temperatur dəyişməsi prosesində materialların emalı üçün elektrik və ya qeyri-elektrik qızdırıcılı (8514 mal mövqeyinin sobaları, kameraları və ya digər avadanlığı istisna olunmaqla) maşınlar, sənaye və ya laboratoriya avadanlığı; qeyri-elektrik axar tipli və ya tutumlu su qızdırıcıları | |
| 8420 | Metalın və ya şüşənin emalı üçün maşınlardan başqa, kalandrlar və ya digər vallı maşınlar və onlar üçün vallar | |
| 8421 | Mərkəzdənqaçma quruducular daxil olmaqla sentrifuqalar; mayelərin və ya qazların filtrlənməsi və ya təmizlənməsi üçün qurğular və avadanlıq | |
| 8422 | Qabyuyan maşınlar; butulkaların və ya digər tutumların yuyulması və ya qurudulması üçün avadanlıq; butulkaların, bankaların doldurulması, tıxanması, yeşiklərin, torbaların və digər tutumların bağlanması, onların möhürlənməsi və ya etiketləşdirilməsi üçün avadanlıq; butulkaların, bankaların, tübiklərin və analoji tutumların qalpaqlarla və ya qapaqlarla hermetik bağlanması üçün avadanlıq; digər qablaşdırma və bükmə (qablaşdırma materiallarını termogeydirmə üsulu ilə bürüyən avadanlıq daxil olmaqla) üçün avadanlıq; içkilərin qazlaşdırılması üçün avadanlıq | |
| 8423 | Çəkilən yükün ağırlıq gücü ilə hərəkətə gətirilən hesablama və ya nəzarət maşınları daxil olmaqla çəki ölçmək üçün avadanlıq (həssaslığı 0,05 q və ya daha artıq olan tərəzilərdən başqa); bütün tipli tərəzilər üçün çəki daşları | |
| 8424 | Mayelərin və ya tozların atılması, çilənməsi və ya püskürdülməsi üçün mexaniki qurğular (o cümlədən, əllə idarəetmə ilə və ya onsuz); doldurulmuş və ya doldurulmamış yanğınsöndürənlər; pulverizatorlar və analoji qurğular; buxarşırnaqlı və ya qumatıcı və analoji atma qurğuları | |
| 8425 | Skipli yük qaldırıcılarından başqa, qaldırıcı tallar və qaldırıcılar; bucurqadlar və dolamaçarxlar (kabestanlar); domkratlar | |
| 8426 | Gəmi derrik-kranları; kabel-kranlar daxil olmaqla qaldırıcı kranlar; hərəkətli qaldırıcı fermalar; portal yükləyicilər və qaldırıcı kranla təchiz olunmuş arabacıqlar | |
| 8427 | Çəngəlağız avtoyükləyicilər; qaldırıcı və ya yükləyici-boşaldıcı avadanlıqla təchiz olunmuş digər yükləyicilər | |
| 8428 | Digər qaldırılma, yerdəyişmə, yüklənmə və ya boşaldılma üçün maşınlar və qurğular (məsələn, liftlər, eskalatorlar, konveyerlər, kanat yolları) | |
| 8429 | Özügedən dönməz və dönər kavahınla buldozerlər, qreyderlər, planlaşdırıcılar, skreperlər, mexaniki kürəklər, ekskavatorlar, birçalovlu yükləyicilər, toxaclayıcı və yolbasan maşınlar | |
| 8430 | Torpağın, faydalı qazıntıların və ya filizlərin yerdəyişməsi, planlaşdırılması, profillənməsi, işlənməsi, toxaclaması, sıxlaşdırılması, çıxarılması və ya qazılması üçün digər maşınlar və mexanizmlər; dirəklərin vurularaq basdırılması və çıxarılması üçün avadanlıq; kotanlı və rotorlu qartəmizləyicilər | |
| 8431 | Yalnız və ya əsasən 8425-8430 mal mövqelərinin avadanlığı üçün nəzərdə tutulmuş hissələr | |
| 8432 | Torpağın hazırlanması və işlənməsi üçün kənd təsərrüfatı, bağçılıq və ya meşə təsərrüfatı maşınları; qazon və ya idman meydançaları üçün vallar | |
| 8433 | Pres toplayıcılar, saman və ya quru ot üçün tay bağlayan preslər daxil olmaqla kənd təsərrüfatı bitkilərinin yığılması və ya döyümlənməsi üçün maşınlar və ya mexanizmlər; otbiçənlər və ya qazonbiçənlər; 8437 mövqeyində göstərilən maşınlardan başqa, yumurtaların, meyvənin və ya digər kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınlar | |
| 8434 | Sağıcı qurğular və aparatlar, südün emalı və təkrar emalı üçün avadanlıq | |
| 8435 | Preslər, xırdalayıcılar və şərabçılıq, sidr, meyvə şirələri və ya analoji içkilərin istehsalı üçün analoji avadanlıq | |
| 8436 | Mexaniki və ya qızdırıcı qurğulu toxumların cücərdilməsi üçün digər avadanlıq daxil olmaqla kənd təsərrüfatı, bağçılıq, meşə təsərrüfatı, quşçuluq və ya arıçılıq üçün avadanlıq; quşçuluq üçün inkubatorlar və bruderlər | |
| 8437 | Toxum, taxıl və ya quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınlar; kənd təsərrüfatı fermalarında istifadə olunan avadanlıqdan başqa, unüyütmə sənayesi üçün avadanlıq və ya taxıl və ya quru paxlalı bitkilərin emalı üçün avadanlıq | |
| 8438 | Heyvan mənşəli piylərin və yağların, bitki və ya mikrobioloji mənşəli sabit piylərinin və ya yağlarının ekstraksiyası və ya hazırlanması üçün avadanlıqdan başqa, bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil olunmayan qida məhsullarının istehsalı və ya hazırlanması üçün avadanlıq | |
| 8439 | Lifli sellüloz materiallardan kütlənin istehsalı və ya kağızın və ya kartonun hazırlanması və işlənməsi üçün avadanlıq | |
| 8440 | Kitab bloklarının tikilməsi üçün maşınlar daxil olmaqla cildləmə avadanlığı | |
| 8441 | Bütün növ kəsmə maşınları daxil olmaqla kağız kütləsindən, kağızdan və ya kartondan məmulatların istehsalı üçün digər avadanlıq | |
| 8442 | Lövhələrin, silindrlərin və ya digər çap formalarının hazırlanması və ya düzəldilməsi üçün maşınlar, aparatura və ləvazimatlar (8456-8465 mal mövqelərinin dəzgahlarından başqa); lövhələr, silindrlər və digər çap formaları; çap məqsədləri üçün hazırlanmış lövhələr, silindrlər və litoqrafiya daşları (məsələn, yonulmuş, cilalanmış və ya pardaqlanmış) | |
| 8443 | Lövhələrin, silindrlərin və 8442 mal mövqeyinin digər çap formalarının vasitəsilə çap üçün istifadə olunan çap maşınları; digər printerlər, surətçıxarma və faksimil aparatları, birləşdirilmiş və ya birləşdirilməmiş; onların hissələri və ləvazimatları | |
| 8444 00 | Kimyəvi tekstil materiallarının ekstruziyası, dartılması, teksturasiya edilməsi və kəsilməsi üçün maşınlar | |
| 8445 | Tekstil liflərin hazırlanması üçün maşınlar; tekstil ipliklərin hazırlanması üçün əyrilmə, eşmə və ya burma maşınları və digər avadanlıq; barama sarıyan və ya sarıyıcı tekstil maşınları (arğac ipliyini sarıyan daxil olmaqla) və 8446 və ya 8447 mal mövqeyinin maşınlarında istifadə üçün tekstil ipliyini hazırlayan tekstil maşınları | |
| 8446 | Toxuculuq dəzgahları | |
| 8447 | Baftalı sapın, tülün, krujevaların hazırlanması, naxış tikmə, tesmanın və ya torların hörülməsi üçün trikotaj toxuyucu, toxuyucu iki üzdən tikmə maşınları və taftinqli maşınlar | |
| 8448 | 8444, 8445, 8446 və ya 8447 mal mövqeyinin maşınları ilə istifadə üçün yardımçı avadanlıq (məsələn, remizaqaldırıcı karetkalar, jakkard maşınları, sapın qırılması üçün avtomatik dayanma mexanizmləri, məkik dəyişdirilməsi üçün mexanizmlər); yalnız və ya əsasən bu mal mövqeyinin və ya 8444, 8445, 8446 və ya 8447 mal mövqeyinin maşınları üçün nəzərdə tutulmuş hissələr və ləvazimatlar (məsələn, iynələr və roqulkalar, iynəli qarnitur, daraqlar, filyerlər, məkiklər, remizlər və remiz çərçivələri, trikotaj iynələri) | |
| 8449 | Fetr şlyapaların istehsalı üçün avadanlıq daxil olmaqla parçalar və ya biçmələr şəklində keçə və ya fetr və ya toxunmamış materialların istehsalı və ya işlənməsi üçün avadanlıq; şlyapa hazırlanması üçün qəliblər | |
| 8450 | Sıxma qurğuları ilə təchiz olunmuş maşınlar daxil olmaqla məişətdə və ya camaşırxanalarda istifadə üçün paltaryuyan maşınlar | |
| 8451 | Yuyulma, təmizləmə, sıxma, qurutma, ütüləmə, presləmə (materialların termofiksasiyası üçün preslər daxil olmaqla), ağartma, boyama, appretura, işlənmə, ipliklərin, parçaların və ya hazır tekstil materiallarının üzərinə örtüyün çəkilməsi və hopdurulması üçün avadanlıq (8450 mal mövqeyinin maşınlarından başqa) və linoleum kimi döşəməüstü örtüklərin istehsalında istifadə olunan toxunmuş və ya digər əsasların üzərinə pastanın yaxılması üçün istifadə olunan maşınlar; tekstil parçaların sarınması, açılması, qatlanması, kəsilməsi və ya deşilməsi üçün maşınlar | |
| 8452 | 8440 mal mövqeyinin kitab bloklarının tikilməsi üçün maşınlarından başqa, tikiş maşınları; tikiş maşınları üçün xüsusi olaraq nəzərdə tutulmuş mebel, əsaslar və futlyarlar; tikiş maşınları üçün iynələr | |
| 8453 | Tikiş maşınlarından başqa, gönlərin və ya dərilərin hazırlanması, aşılanması və ya emalı üçün və ya ayaqqabının və ya dəridən və ya göndən digər məmulatların hazırlanması və ya təmiri üçün avadanlıq | |
| 8454 | Metallurgiyada və ya tökmə istehsalatında istifadə olunan konvertorlar, tökmə təknələri, polad qəliblər və tökmə maşınları | |
| 8455 | Metal prokat maşınları və onlar üçün vallar | |
| 8456 | Materialın lazer və ya digər işıq və ya foton şüalarının, ultrasəs, elektrik boşalması, elektrokimyəvi, elektron-şüa, ion-şüaları və ya plazma-qövs proseslərinin köməyi ilə kənarlaşdırılması yolu istənilən materialların emalı üçün dəzgahlar; suşırnaqlı kəsici maşınlar | |
| 8457 | Metalın emalı üçün emal mərkəzləri, birmövqeli və çoxmövqeli aqreqat dəzgahlar | |
| 8458 | Metalkəsən torna dəzgahları (çoxməqsədli torna dəzgahları daxil olmaqla) | |
| 8459 | 8458 mal mövqeyinin torna dəzgahlarından (çoxməqsədli torna dəzgahları daxil olmaqla) başqa, dəlikaçma, yonma, frezləmə, metalın kənarlaşdırılması ilə xarici və ya daxili yiv açma üçün metalkəsən dəzgahlar (xətti quruluşlu aqreqat dəzgahlar daxil olmaqla) | |
| 8460 | 8461 mal mövqeyinin dişaçma, diş cilalama və ya diş tamamlama dəzgahlarından başqa, soyucu-cilalayıcı, itiləyici, cilalayıcı, honlama, sürtüb-uyğunlaşdırıcı, pardaqlayıcı dəzgahlar və metalların və ya metal-keramika məmulatlarının abraziv dairələrin və cilalayıcı vasitələrin köməyi ilə təmizlənib işlənməsi üçün digər əməliyyatları yerinə yetirən dəzgahlar | |
| 8461 | Uzununa yonma, eninə yonma, dəlmə, dartma, dişaçma, diş cilalama və ya diş tamamlama, mişarlama, kəsmə dəzgahları və materialı kənarlaşdırılmaqla metalların və metal-keramikanın emalı üçün başqa yerdə adları çəkilməyən və ya daxil olunmayan digər dəzgahlar | |
| 8462 | Metalların həcmli ştaplama, döymə və ya ştamplama ilə emalı üçün dəzgahlar (preslər daxil olmaqla); metalların emalı üçün (preslər, uzununa kəsmə xətti və eninə kəsmə xətti də daxil olmaqla) əymə, kənarəymə, düzləşdirmə, kəsmə, deşmə, doğrama və ya oyma dəzgahları (məftil çəkmə dəzgahlarından başqa); metalların və ya metal karbidlərinin emalı üçün yuxarıda adı göstərilməyən preslər | |
| 8463 | Materialı kənarlaşdırmamaqla metal və ya metal-keramikanın emalı üçün digər dəzgahlar | |
| 8464 | Daşın, keramikanın, betonun, asbosementin və ya analoji mineral materialların emalı və ya şüşənin soyuq emalı üçün dəzgahlar | |
| 8465 | Ağacın, mantarın, sümüyün, ebonitin, bərk plastmasın və ya analoji bərk materialların emalı üçün dəzgahlar (mıxların, dəmirbəndlərin, yapışqanın vasitəsilə və ya digər üsullarla yığma üçün maşınlar daxil olmaqla) | |
| 8466 | Alətin və ya detalların bərkidilməsi üçün qurğular, özüaçılan yivaçan başlıqlar, bölücü başlıqlar və avadanlıq üçün digər xüsusi qurğular da daxil olmaqla, yalnız və ya əsasən 8456-8465 mal mövqelərinin avadanlığı üçün hissələr və ləvazimatlar; bütün növ əl alətləri üçün iş alətlərinin bərkidilməsi üçün qurğular | |
| 8467 | Pnevmatik, hidravlik və ya elektrik və ya qeyri-elektrik mühərrikli əl alətləri | |
| 8468 | 8515 mal mövqeyinin maşınlarından və aparatlarından başqa, kəsmə üçün yararlı və ya yararsız aşağı temperaturlu lehimləmə, yuxarı temperaturlu lehimləmə və ya qaynaq üçün aparatlar və avadanlıq; qazla işləyən səthi termoemal üçün aparatlar və maşınlar | |
| 8470 | Hesablayıcı maşınlar və hesablayıcı funksiyalı məlumatın yazılması, canlandırılması və vizual təsviri üçün cib maşınları; mühasibat maşınları, poçt markalayıcı maşınlar, bilet aparatları və hesablayıcı qurğulu digər analoji maşınlar; kassa aparatları | |
| 8471 | Hesablayıcı maşınlar və onların blokları; başqa yerdə adları çəkilməyən və ya daxil olunmayan maqnit və ya optik hesablayıcı qurğular, kodlaşdırılmış formada məlumatı informasiya daşıyıcılarına köçürmək üçün maşınlar və informasiyanın işlənməsi üçün oxşar maşınlar | |
| 8472 | Digər kontor avadanlığı (məsələn, hektoqrafik və ya trafaret çoxaldıcı aparatlar, ünvan maşınları, banknotların verilməsi üçün avtomatik qurğular, sikkələrin çeşidlənməsi, hesablanması və ya qablaşdırılması üçün maşınlar, karandaşların yonulması üçün maşınlar, dəlik açma maşınları və ya dəmirbəndlə bərkidilmə üçün maşınlar) | |
| 8473 | Yalnız və ya əsasən 8470-8472 mal mövqelərinin maşınları üçün hissələr və ləvazimatlar (daşınma üçün futlyarlardan, çexollardan və analoji məmulatlardan başqa) | |
| 8474 | Bərk (o cümlədən toz və ya pasta şəklində) halda olan torpağın, daşın, filizin və ya digər mineral qazıntıların çeşidlənməsi, qəlbirləməsi, ayrılması, yuyulması, xırdalanması, qarışdırılması və ya yoğrulması üçün avadanlıq; bərk mineral yanacağın, keramika tərkiblərin, bərkiməmiş sementin, gips materialların və ya toz və ya pasta şəklində olan digər mineral məhsulların aqlomerasiyası, qəliblənməsi və ya tökülməsi üçün avadanlıq; qumdan tökmə formaların hazırlaması üçün qəlibləmə maşınları | |
| 8475 | Elektrik və ya elektron lampaların, borucuqların və ya elektron-şüa borucuqların və ya şüşə kolbalarda qazboşalma lampaların yığılması üçün maşınlar; şüşənin və ya şüşə məmulatların hazırlanması və ya isti emalı üçün maşınlar | |
| 8477 | Bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil olunmayan rezinin və ya plastmasın emalı və ya bu materiallardan məhsulun istehsalı üçün avadanlıq | |
| 8478 | Bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil olunmayan tütünün hazırlanması üçün avadanlıq | |
| 8479 | Bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil olunmayan fərdi funksiyalı maşınlar və mexaniki qurğular | (8479 71 000 0, 8479 79 000 0 kodları istisna olmaqla) |

*Ardı 8-ci səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 iyul tarixli 231 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin

## S İ Y A H I S I

*Əvvəli 7-ci səh.*

| | | |
|---|---|---|
| 8480 | Metaltökmə istehsalı üçün qəlib qutuları; tökmə altlıqları; tökmə modelləri; metalların (külçələrin tökülməsi üçün qəliblərdən başqa), metal karbidlərin, şüşənin, mineral materialların, rezinin və ya plastmasların tökülməsi üçün formalar | |
| 8481 | Reduksiya və termotənzimləyici klapanlar da daxil olmaqla boru kəmərləri, qazanlar, rezervuarlar, sisternlər, çənlər və ya analoji tutumlar üçün kranlar, klapanlar, ventillər və analoji armaturlar | |
| 8483 | Transmissiya valları (yumruqcuqlu və dirsəkli vallar da daxil olmaqla) və krivoşiplər; vallar üçün diyirlənmə yastıq korpusları və sürüşmə yastıqları; dişli çarxlar və ya dişli ötürmələr; kürəcikli və ya diyircəkli vintli ötürmələr; hidrotransformatorlar da daxil olmaqla ötürücü qutular və sürətin digər variatorları; şkiv blokları da daxil olmaqla nazim çarxlar və şkivlər; muftalar və valların birləşməsi üçün qurğular (universal şarnirlər də daxil olmaqla) | |
| 8485 | Additiv texnologiya (3D çap) üçün maşınlar | |
| 8486 | Yalnız və ya əsasən yarımkeçirici külçələrin və ya lövhələrin, yarımkeçirici cihazların, elektron inteqral sxemlərin və ya yastı displey panellərin istehsalı üçün istifadə olunan maşınlar və aparatura; bu qrupa dair 11 (C) qeydində göstərilən maşınlar və aparatura; hissələr və ləvazimatlar | |
| 8487 | Bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil edilməyən, elektrik detalları, elektrik birləşmələri, izolyatorları, kontaktları, makaraları və digər elektrik detalları olmayan avadanlığın hissələri | |
| | **QRUP 85. ELEKTRİK MAŞINLAR VƏ AVADANLIQ, ONLARIN HİSSƏLƏRİ; SƏSYAZMA VƏ SƏSLƏNDİRMƏ APARATURASI, TELEVİZİYA TƏSVİRİNİN VƏ SƏSİN YAZILMASI VƏ CANLANDIRILMASI ÜÇÜN APARATURA, ONLARIN HİSSƏLƏRİ VƏ LƏVAZİMATLARI** | |
| 8501 | Elektrik mühərriklər və generatorlar (elektrik generator qurğularından başqa) | |
| 8502 | Elektrik generator qurğuları və fırlanan elektrik dəyişdiriciləri | |
| 8503 | Yalnız və ya əsasən 8501 və ya 8502 mal mövqeyinin maşınları üçün nəzərdə tutulmuş hissələr | |
| 8504 | Elektrik transformatorlar, statik elektrik dəyişdiricilər (məsələn, düzləndiricilər), induktivlik çarxları və drossellər | |
| 8505 | Elektromaqnitlər; sabit maqnitlər və maqnitləşmədən sonra sabit maqnitə çevrilmə üçün nəzərdə tutulmuş məmulatlar; elektromaqnit və ya sabit maqnitli sıxac patronları, tutqaclar və analoji təsbitedici qurğular; elektromaqnit ilişmələr, muftalar və əyləclər; elektromaqnit qaldırıcı başlıqlar | |
| 8507 | Elektrik akkumulyatorlar, onlar üçün düzbucaqlı (o cümlədən kvadrat) və ya digər formada separatorlar daxil olmaqla | |
| 8508 | Tozsoranlar | |
| 8509 | 8508 mal mövqeyində göstərilən tozsoranlardan başqa, elektrik mühərrik ilə təchiz edilmiş məişət elektromexaniki maşınlar | |
| 8511 | Daxili yanma mühərriklərinin qığılcımla və ya yanacaq qarışığının sıxılması ilə alışması və ya işə salınması üçün elektrik avadanlıq (məsələn, maqneto, alışdırma makaraları, alışdırma şamları, közərtmə şamları, starterlər); generatorlar (məsələn, sabit və dəyişən cərəyanlı) və bu kimi mühərriklərlə birlikdə istifadə olunan cərəyankəsicilər | |
| 8514 | Sənaye və ya laboratoriya elektrik sobaları və kameraları (induksiya hadisəsi və ya dielektrik itkiləri əsasında işləyən daxil olmaqla); induksiya hadisəsi və ya dielektrik itkisi üsulu ilə materialların termik emalı üçün sənaye və ya laboratoriya avadanlığı | |
| 8515 | Kəsmə əməliyyatını yerinə yetirməyə qadir olan və ya olmayan, elektrik (o cümlədən qazın elektriklə qızdırılması daxil olmaqla), lazer və ya digər işıq və ya foton, ultrasəs, elektron-şüa, maqnit-impulsiv və ya plazma-qövs aşağı temperaturlu lehimləmə, yüksək temperaturlu lehimləmə və ya qaynaq maşınları və aparatları; metalların və ya metal-keramikanın səthinin isti tozlandırılması üçün elektrik maşınlar və aparatlar | |
| 8516 | Elektriklə işləyən axar tipli və ya tutumlu su qızdırıcıları, batırılma elektrik qızdırıcıları; hər hansı bir məkanın və torpağın isidilməsi üçün elektrik avadanlıq, saçlara qulluq üçün elektrotermik aparatlar (məsələn, saç quruducuları, biqudi, isti burma üçün maşalar) və əl quruducuları; elektrik ütülər; digər məişət elektrik qızdırıcı cihazları; 8545 mal mövqeyində göstərilənlərdən başqa, elektrik müqavimət qızdırıcıları | |
| 8517 | Mobil və ya digər naqilsiz rabitə şəbəkələri üçün smartfonlar və digər telefon aparatları da daxil olmaqla telefon aparatları; 8443, 8525, 8527 və ya 8528 mal mövqeyinin ötürücü və ya qəbuledici aparaturalarından başqa, naqilsiz və ya naqilli rabitə şəbəkəsində kommunikasiya üçün aparatura daxil olmaqla (məsələn, lokal və ya qlobal rabitə şəbəkəsində), səsin, təsvirin və ya başqa məlumatların ötürülməsi və ya qəbul edilməsi üçün digər aparatura | |
| 8518 | Mikrofonlar və onlar üçün altlıqlar; korpuslarda quraşdırılmış və ya quraşdırılmamış reproduktorlar; mikrofonla birləşdirilmiş və ya birləşdirilməmiş qulaqlıqlar və baş telefonları və mikrofondan və bir və ya bir neçə reproduktorlardan ibarət olan dəstlər; elektrik səs tezliyinin gücləndiriciləri; elektrik səsgücləndirici dəstlər | |
| 8523 | 37-ci qrupun məmulatlarından başqa, disklərin hazırlanması üçün matrisa və master-disklər daxil olmaqla yazılmış və ya yazılmamış, səsyazma və ya başqa hadisələr üçün disklər, lentlər, enerji asılılığı olmayan məlumatların saxlanılması üçün sərt cisimli qurğular, "intellektual kartlar" və digər səsyazma və ya digər hadisələr üçün daşıyıcılar | |
| 8526 | Radiolokasiya, radionaviqasiya aparaturası və uzaqdan idarəetmə üçün radioaparatura | |
| 8527 | Bir korpusda səsyazan və ya səsləndirici aparatura ilə və ya saatla birləşdirilmiş və ya birləşdirilməmiş radioyayım üçün qəbuledici aparatura | |
| 8528 | Tərkibində televiziya üçün qəbuledici aparatura olmayan monitorlar və proyektorlar; tərkibində geniş yayımlı radioqəbuledici və ya səsi və ya təsviri yazan və ya canlandıran aparatura olan və ya olmayan televiziya rabitəsi üçün qəbuledici aparatura | |
| 8529 | Yalnız və ya əsasən 8524-8528 mal mövqelərinin aparaturası üçün nəzərdə tutulmuş hissələr | |
| 8531 | 8512 və ya 8530 mal mövqeyinin avadanlığından başqa, səs və ya vizual siqnalizasiya elektrik avadanlığı (məsələn, zənglər, sirenalar, indikator panelləri, mühafizənin təmin edilməsi üçün və ya yanğın təhlükəsizliyi üçün siqnalizasiya qurğuları) | |
| 8532 | Sabit, dəyişən və tənzimlənən (əvvəlcədən təmzimlənmə) elektrik kondensatorlar | |
| 8533 | Qızdırıcı elementlərindən başqa, elektrik rezistorlar (reostatlar və potensiometrlər daxil olmaqla) | |
| 8534 00 | Çap sxemləri | |
| 8535 | 1000 V-dan çox gərginlik üçün elektrik dövrələrinin kommutasiyası və ya qorunması üçün və ya elektrik dövrələrinə qoşulmaq və ya elektrik dövrlər üçün elektrik aparatura (məsələn, qoşucu açarlar, dəyişdirici açarlar, kəsicilər, əriyən qoruyucular, ildırım ötürücüləri, gərginlik məhdudlaşdırıcıları, gərginlik sıçrayışlarının söndürücüləri, cərəyan qəbulediciləri, cərəyan götürücüləri və digər birləşdiricilər, birləşdirici qutular) | |
| 8536 | 1000 V-dan çox olmayan gərginlik üçün elektrik dövrələrinin kommutasiyası və ya qorunması üçün, və ya elektrik dövrələrinə qoşulmaq və ya elektrik dövrlər üçün elektrik aparatura (məsələn, qoşucu açarlar, dəyişdirici açarlar, kəsicilər, rele, əriyən qoruyucular, gərginlik sıçrayışlarının söndürücüləri, ştepsel vilkaları və rozetkaları, elektrik lampaları üçün patronlar və digər birləşdiricilər, birləşdirici qutular); optik liflər, optik-lifli jqutlar və ya kabellər üçün birləşdiricilər | |
| 8537 | Elektrik cərəyanının idarəetməsi və ya bölüşdürülməsi üçün 8535 və ya 8536 mal mövqeyinin iki və ya daha çox qurğusu ilə təchiz olunmuş, o cümlədən 90-cı qrupun cihazlarını və qurğularını və rəqəmsal idarəetmə aparatlarını daxil edən, tərkibində 8517 mal mövqeyinin kommutasiya qurğuları olmayan pultlar, panellər, konsollar, masalar, bölüşdürücü şitlər və elektrik aparatları üçün digər təməllər | |
| 8538 | Yalnız və ya əsasən 8535, 8536 və ya 8537 mal mövqeyinin aparaturası üçün nəzərdə tutulmuş hissələr | |
| 8541 | Yarımkeçirici cihazlar (diodlar, tranzistorlar və yarımkeçirici əsaslı çeviricilər); fotoqalvanik elementlər daxil olmaqla modullara yığılmış və ya yığılmamış, panellərə quraşdırılmış və ya quraşdırılmamış fotohəssas yarımkeçirici cihazlar; digər işıq saçan diodlarla (LED) yığılmış və ya yığılmamış, işıq saçan diodlar (LED); yığılmış pyezoelektrik kristallar | |
| 8542 | Elektron inteqral sxemlər | |
| 8543 | Bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil edilməyən, fərdi funksiyaları olan elektrik maşınlar və aparatura | |
| 8548 00 | Bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil edilməyən, elektrik avadanlıqlarının və ya aparaturalarının hissələri | |
| | **QRUP 86. DƏMİRYOL LOKOMOTİVLƏRİ VƏ YA MÜHƏRRİKLİ TRAMVAY VAQONLARI, DƏMİRYOL NƏQLİYYAT VASİTƏLƏRİ VƏ ONLARIN HİSSƏLƏRİ; DƏMİRYOL VƏ YA TRAMVAY XƏTLƏRİ ÜÇÜN YOL AVADANLIĞI VƏ QURĞULARI VƏ ONLARIN HİSSƏLƏRİ; BÜTÜN NÖV MEXANİKİ (ELEKTROMEXANİKİ DAXİL OLMAQLA) SİQNAL AVADANLIĞI** | |
| 8606 | Özügetməyən dəmiryol və ya tramvay yük vaqonları | *yalnız xüsusi nəqliyyat vasitələri ilə qida məhsullarının daşınması layihələri üçün* |
| | **QRUP 87. DƏMİR YOLU VƏ TRAMVAY NƏQLİYYAT VASİTƏLƏRİNDƏN BAŞQA, YERÜSTÜ NƏQLİYYAT VASİTƏLƏRİ VƏ ONLARIN HİSSƏLƏRİ VƏ LƏVAZİMATLARI** | |
| 8701 | Traktorlar (8709 mal mövqeyinin traktorlarından başqa) | |
| 8703 | Yük-sərnişin avtomobil furqonları və yarış avtomobilləri daxil olmaqla əsasən adam daşınmaq üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər mühərrikli nəqliyyat vasitələri (8702 mal mövqeyinin mühərrikli nəqliyyat vasitələrindən başqa) | *yalnız turizm istiqamətli layihələr üçün* |
| 8704 | Yük daşımaq üçün mühərrikli nəqliyyat vasitələri | *yalnız xüsusi nəqliyyat vasitələri ilə qida məhsullarının daşınması layihələri üçün* |
| 8705 | Sərnişinlərin və ya yüklərin daşınması üçün istifadə olunanlardan başqa, xüsusi təyinatlı mühərrikli nəqliyyat vasitələri (məsələn, qəza-yük avtomobilləri, avtokranlar, yanğınsöndürən nəqliyyat vasitələri, avtobetonqarışdırıcılar, yolların təmizlənməsi üçün avtomobillər, çiləyici-yuyucu maşınlar, avtoemalatxanalar, rentgen qurğulu avtomobillər) | |
| 8706 00 | 8701-8705 mal mövqelərinin mühərrikli nəqliyyat vasitələri üçün mühərrik quraşdırılmış şassilər | |
| 8708 | 8701-8705 mal mövqelərinin mühərrikli nəqliyyat vasitələri üçün hissələr və ləvazimatlar | |
| 8709 | Qaldırıcı və ya yükləmə qurğuları ilə təchiz olunmamış, zavodlarda, anbarlarda, limanlarda və ya aeroportlarda yükləri qısa məsafələrə daşımaq üçün sənaye təyinatlı özügedən nəqliyyat vasitələri; dəmiryol platformalarında istifadə olunan traktorlar; yuxarıda göstərilmiş nəqliyyat vasitələrinin hissələri | |
| 8711 | Qoşulma arabalı və ya onsuz motosikllər (mopedlər daxil olmaqla) və yardımçı mühərrikli velosipedlər; qoşulma arabalar | |
| 8716 | Qoşqular və yarımqoşqular; digər özügetməyən nəqliyyat vasitələri; onların hissələri | |
| | **QRUP 88. UÇUŞ APARATLARI, KOSMİK APARATLAR VƏ ONLARIN HİSSƏLƏRİ** | |
| 8801 00 | Aerostatlar və dirijabllar; planerlər, deltaplanlar və digər mühərriksiz uçuş aparatları | *yalnız turizm istiqamətli layihələr üçün* |
| 8802 | Digər uçuş aparatları (məsələn, vertolyotlar, təyyarələr), 8806 mal mövqeyinin pilotsuz uçuş aparatları istisna olmaqla; kosmik aparatlar (peyklər daxil olmaqla) və suborbital və kosmik raketdaşıyıcılar | |
| 8804 00 000 0 | Paraşütlər (idarə olunan paraşütlər və paraplanlar daxil olmaqla) və rotoşütlər; onların hissələri və ləvazimatları | *yalnız turizm istiqamətli layihələr üçün* |
| | **QRUP 89. GƏMİLƏR, QAYIQLAR VƏ ÜZƏN KONSTRUKSİYALAR** | |
| 8907 | Digər üzən konstruksiyalar (məsələn, sallar, üzən çənlər, kessonlar, debar-kaderlər, buylar və bakenlər) | *yalnız balıqyetişdirmə layihələri üçün* |
| 8908 00 000 0 | Sökülmə üçün nəzərdə tutulmuş gəmilər və digər üzən konstruksiyalar | *yalnız balıqyetişdirmə layihələri üçün* |
| | **QRUP 90. OPTİK, FOTOQRAFİYA, KİNEMATOQRAFİYA, ÖLÇÜ, NƏZARƏT, ÇOX DƏQİQ, TİBBİ VƏ YA CƏRRAHİYYƏ ALƏTLƏRİ VƏ APARATLARI; ONLARIN HİSSƏLƏRİ VƏ LƏVAZİMATLARI** | |
| 9011 | Mikrofotoçəkiliş, mikrokinoçəkiliş və ya mikroproyeksiya üçün mikroskoplar daxil olmaqla mürəkkəb optik mikroskoplar | |
| 9012 | Optik mikroskoplardan başqa, mikroskoplar; difraksiya aparatları | |
| 9015 | Kompaslardan başqa, geodezik və ya topoqrafik (fotoqrammetrik daxil olmaqla), hidroqrafik, okeanoqrafik, hidroloji, meteoroloji və ya geofiziki cihazlar və alətlər; məsafəölçənlər | |
| 9016 00 | Çəki daşları ilə və ya onlarsız həssaslığı 0,05 q və ya daha çox olan tərəzilər | |
| 9017 | Rəsmxət, nişanlama və ya riyazi hesablamalar üçün alətlər (məsələn, çertyoj maşınları, pantoqraflar, transportirlər, çertyoj dəstləri, loqarifm xətkeşləri, diskli kalkulyatorlar); bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil olunmayan xətti ölçülərin ölçülməsi üçün əl alətləri (məsələn, ölçü çubuqları və ruletkalar, mikrometrlər, kronpərgarlar) | |
| 9018 | Sintiqrafiya aparaturası daxil olmaqla tibbdə, cərrahiyyədə, stomatologiyada və ya baytarlıqda tətbiq edilən cihazlar və qurğular, digər tibbi elektrik aparatura və görməni müayinə etmək üçün cihazlar | |
| 9019 | Mexanoterapiya üçün qurğular; masaj aparatları; bacarığı müəyyənləşdirmək üçün psixoloji test aparaturası; ozon, oksigen və aerozol terapiyası, süni tənəffüs üçün aparatura və ya digər terapevtik tənəffüs aparaturası | |
| 9022 | Rentgenoqrafik və ya radioterapevtik aparatura, rentgen borucuqlar və digər rentgen şüaların generatorları, yüksək gərginlik generatorları, idarəetmə şitləri və pultları, ekranlar, masalar, kreslolar və müayinə və ya müalicə üçün analoji məmulatlar daxil olmaqla rentgen, alfa-, beta- və ya qamma- və ya digər ionlaşdırıcı şüaların istifadəsinə əsaslanan tibbi, cərrahi, stomatoloji və ya baytarlıqda istifadəsi üçün nəzərdə tutulmuş və ya nəzərdə tutulmamış aparatura: | |
| 9024 | Materialların (məsələn, metalların, ağacın, tekstil materialların, kağızın, plastmasın) bərkliyinin, möhkəmliyinin, sıxılmasının, elastikliyinin və ya digər mexaniki xassələrinin sınağı üçün maşınlar və qurğular | |
| 9025 | Qeydedici qurğulu və ya qeydedici qurğusuz areometrlər və mayeyə batırıldıqda işləyən analoji cihazlar, termometrlər, pirometrlər, barometrlər, hiqrometrlər və psixrometrlər və bu cihazların istənilən kombinasiyaları | |
| 9026 | 9014, 9015, 9028 və ya 9032 mal mövqeyinin cihazlarından və aparaturasından başqa, mayelərin və ya qazların məsrəfini, səviyyəsini, təzyiqini və ya digər dəyişən səciyyələrini ölçmək və ya onlara nəzarət üçün cihazlar və aparatura (məsələn, məsrəfölçənlər, səviyyə göstəriciləri, manometrlər, istilikölçənlər) | |
| 9027 | Fiziki və ya kimyəvi analizlər üçün cihazlar və aparatura (məsələn, polyarimetrlər, refraktometrlər, spektrometrlər, qaz və ya tüstü analizatorları); özlülüyün, məsaməliliyin, genişlənmənin, səthi gərilmənin və ya analoji göstəricilərin ölçülməsi və ya nəzarəti üçün cihazlar və aparatura; istiliyin, səsin və ya işığın miqdarının ölçülməsi və ya nəzarəti üçün cihazlar və aparatura (eksponometrlər daxil olmaqla); mikrotomlar | |
| 9028 | Kalibrlasiya edənlər daxil olmaqla qazın, mayenin və ya elektrik enerjisinin verilməsinin və ya istehsalının sayğacları | |
| 9029 | Dövrlər sayının sayğacları, məhsulun miqdarını ölçən sayğaclar, taksometrlər, mildə keçmiş məsafəni ölçən sayğaclar, addımölçənlər və analoji cihazlar; 9014 və ya 9015 mal mövqeyinin cihazlarından və alətlərindən başqa, spidometrlər və taxometrlər; stroboskoplar | |
| 9030 | 9028 mal mövqeyinin ölçü cihazlarından başqa, ossilloskoplar, spektr analizatorları, elektrik vahidlərinin ölçülməsi və onlara nəzarət üçün digər cihazlar və aparatura; alfa-, beta-, qamma-, rentgen, kosmik və ya digər ionlaşdırıcı şüaların aşkar edilməsi və ya ölçülməsi üçün cihazlar və aparatura | |
| 9031 | Bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil olunmayan ölçü və ya nəzarət cihazları, qurğuları və ya maşınları; profil proyektorları | |
| 9032 | Avtomatik tənzimlənmə və ya idarəetmə üçün cihazlar və qurğular | |
| 9033 00 000 0 | 90-cı qrupun maşınlarının, cihazlarının, alətlərinin və ya aparaturasının hissələri və ləvazimatları (başqa yerdə adları çəkilməyən və ya daxil olunmayan | |
| | **QRUP 94. MEBEL; YATAQ LƏVAZİMATLARI, DÖŞƏKLƏR, DÖŞƏK ƏSASLARI, DİVAN YASTIQLARI VƏ ANALOJİ DOLDURULMA MEBEL LƏVAZİMATLARI; BAŞQA YERDƏ ADLARI ÇƏKİLMƏYƏN VƏ YA DAXİL OLUNMAYAN LAMPALAR VƏ İŞIQLANDIRICI AVADANLIQ; ÜZƏRİNDƏ AD VƏ YA ÜNVAN YAZILMIŞ İŞIQ TABLOLARI VƏ LÖVHƏLƏRİ VƏ ANALOJİ MƏMULATLAR; YIĞMA TİKİNTİ KONSTRUKSİYALARI** | |
| 9405 | Projektorlar, dar istiqamətli işıq lampaları, fənərlər və onların hissələri daxil olmaqla başqa yerdə adları çəkilməyən və ya daxil olunmayan lampalar və işıqlandırıcı avadanlıq; başqa yerdə adları çəkilməyən və ya daxil olmayan işıq lövhələri, üzərində ad və ya ünvan yazılmış işıq tabloları və quraşdırılmış işıq mənbəyi olan analoji məmulatlar və onların hissələri | |
| 9406 | Yığma tikinti konstruksiyaları | |
| | **QRUP 95. OYUNCAQLAR, OYUNLAR VƏ İDMAN İNVENTARI; ONLARIN HİSSƏLƏRİ VƏ LƏVAZİMATLARI** | |
| 9504 | Pinbol, bilyard oyunları üçün masalar, kazino oyunları üçün xüsusi masalar və boulinq üçün avtomatik avadanlıq, sikkə, banknot, bank kartları, jeton və ya digər ödəniş vasitələri ilə işə salınan avtomat oyunlar da daxil olmaqla videooyunlar üçün konsollar və avadanlıqlar, masaüstü və ya otaq oyunları | *yalnız turizm istiqamətli layihələr üçün* |
| 9506 | Başqa yerdə adları çəkilməyən və ya daxil olunmayan bədən tərbiyəsi, gimnastika, yüngül atletika, idmanın digər növləri (masaüstü tennis daxil olmaqla) və ya açıq hava oyunları üçün inventar və avadanlıq; üzgüçülük hovuzları və uşaqlar üçün hovuzlar | *yalnız turizm istiqamətli layihələr üçün* |
| 9508 | Səyyar sirklər və səyyar heyvanxanalar; əyləncə parkı attraksionları və su parkı attraksionları; tir də daxil olmaqla yarmarka attraksionu; səyyar teatrlar | *yalnız turizm istiqamətli layihələr üçün* |

# "Xəzri dalğası" taktiki təlimi keçirilir

## Təlimə 1500 nəfər şəxsi heyət, gəmilər, helikopterlər, pilotsuz uçuş aparatları və zirehli döyüş maşınları cəlb olunub









**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü tədris ilinin hazırlıq planına əsasən Hərbi Dəniz Qüvvələri, Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi ilə qarşılıqlı əlaqədə "Xəzri dalğası" taktiki təlimi keçirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 20-də Müdafiə Nazirliyinin rəhbər heyəti Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda enerji infrastrukturlarının mühafizəsi və müdafiəsi zamanı döyüş əməliyyatlarının aparılması üzrə keçirilən təlimi izləmək üçün hərbi-dəniz bazasına gəlib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Hərbi Dəniz Qüvvələri qərargahının ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

Sonra Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov təlimin gedişi və icra olunacaq tapşırıqlar barədə müdafiə nazirinə məruzə edib.

Bildirilib ki, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus ərazi sektorunun mühafizə və müdafiəsi Hərbi Dəniz Qüvvələrinin qüvvə və vasitələri ilə yüksək səviyyədə təşkil olunub. Dəniz sularımız pilotsuz uçuş aparatları və digər texniki vasitələrlə fasiləsiz müşahidə edilir.



Məlumat verilib ki, təlimin məqsədi ərazi sularımızda yarana biləcək təhdid zamanı komandirlərin və qərargah zabitlərinin birgə fəaliyyətlərin işlənməsi, eləcə də bölmələrin döyüşdə idarə olunması üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsidir.

Üç mərhələdə keçirilən təlimdə müxtəlif tapşırıqlar üzrə fəaliyyətlər icra edilir.

Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus ərazi sektorunda təlimin gedişatını izləyən müdafiə naziri hərbi qulluqçuların peşəkarlığını yüksək qiymətləndirib.

Qeyd edək ki, təlimə 1500 nəfər şəxsi heyət, Hərbi Dəniz Qüvvələrinin döyüş, təminat, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin gözətçi gəmiləri, Hərbi Dəniz Qüvvələrinin helikopterləri, pilotsuz uçuş aparatları və Quru Qoşunlarının zirehli döyüş maşınları cəlb olunub.





# Ermənistan regionun ekologiyasına qənim kəsilib







**Ermənistanın dağ-mədən sənayesinin fəaliyyəti regionun ekosisteminə ciddi təhlükə yaradır. Beynəlxalq ekoloji normalara cavab verməyən bu fəaliyyət regionda təbiətin məhv edilməsinə və ekoloji tarazlığın pozulmasına səbəb olur. Hazırda isə Ermənistan Naxçıvanla sərhəddə, Arazdəyəndə beynəlxalq konvensiyaların tələblərinə əsasən, qonşu dövlətlərlə razılaşdırmadan iri metallurgiya zavodu inşa etməyə hazırlaşır.**
**Ölkəmizdə fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları bununla bağlı beynəlxalq ictimaiyyətə və Birləşmiş Millətlər Təşkilatına (BMT) müraciət ünvanlayıblar. Məktubu ünvanlayan QHT nümayəndələrinin fikirlərini öyrəndik.**

### Qeyri-hökumət təşkilatlarının çağırışına biganə yanaşılmamalıdır

"Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli deyib ki, ötən əsrin 90-cı illərində havadarlarının dəstəyi ilə torpaqlarımızı işğal edən ermənilərin ərazilərimizdə flora və faunaya vurduqları ciddi ziyan Vətən müharibəsindən sonra ortaya çıxdı. Aydın oldu ki, Ermənistan 30 illik işğalı dövründə dağ-mədən sənayesinin tullantıları ilə canlı və cansız aləmi məhv etməklə məşğul olub. Həmçinin ermənilər ölkəmizin zəngin təbii ehtiyatlarını qanunsuz istismar ediblər. Onların mədən sənayesi vasitəsilə ekologiyamızın çirkləndirilməsinin nəticəsidir ki, biz torpaqlarımızı zəhərli maddələrdən təmizləmək üçün hələ uzun illər ciddi yatırım etməliyik".

Q.İbrahimli bildirib ki, ekoloji cinayətlər törətməkdən yorulmaq bilməyən ermənilər indi də Naxçıvanla sərhəddə, Arazdəyəndə yeni metallurgiya zavodu tikməyə hazırlaşırlar: "Deməli, qonşuluq əlaqələrini və beynəlxalq normaları pozan Ermənistana yerini göstərməyin vaxtı gəlib çatıb. Ona görə də vətəndaş cəmiyyəti təşkilatları olaraq Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəlakətə səbəb olan fəaliyyəti barədə beynəlxalq ictimaiyyətə və BMT-yə müraciət ünvanlamışıq. Əlbəttə, sual yaranar ki, 30 ilə yaxın öz ölkəsində qaçqın vəziyyətdə yaşayan soydaşlarımızın doğma yurdlarına qaytarılması üçün bir addım belə atmayan beynəlxalq təşkilatlardan indi nə gözləyirsiniz?! Doğrudur, lakin nəzərə almaq lazımdır ki, Ermənistanın dağ-mədən sənayesi təkcə regional deyil, qlobal səviyyədə də təhlükəlidir".

Müsahibimizin sözlərinə görə, beynəlxalq təşkilatlara ünvanlanmış müraciətdə Ermənistanın illərdir ki öz vətəndaşlarına və transsərhəd çayları vasitəsilə bütün qonşu dövlətlərə - xüsusən də ölkəmizə vurduğu və gələcəkdə vuracağı qlobal zərər və təhlükədən bəhs olunub. "Ümid edirik, Azərbaycanın qeyri-hökumət təşkilatlarının bu çağırışına biganə yanaşılmayacaq. Ermənistana beynəlxalq qınaq, tənbeh, sanksiyalar vasitəsilə təzyiq göstərilməlidir. Əks halda insanların sağlamlığının, bütövlükdə canlı və cansız aləmin olduqca böyük zərər altında qalacağı qaçılmazdır. Belə olan halda isə təbiətin, biomüxtəlifliyin qorunması, eləcə də qlobal atmosferin, litosfer və hidrosferin çirklənməsinin qarşısını almaq üçün Azərbaycan qəti addımlar atmalı olacaq", - deyə o bildirib.

Q.İbrahimli əlavə edib ki, Azərbaycan hər zaman beynəlxalq hüquqa hörmət edib, qonşuluq əlaqələrinə xüsusi həssaslıqla yanaşıb. Ermənistan isə bütün bunların fonunda riyakar əməllərindən əl çəkmir. Hesab edirik müraciət etdiyimiz beynəlxalq təşkilatlar heç olmazsa bu dəfə qəti addım atacaq və ekoloji terrorun qarşısını alacaqlar.

### Ermənistan qoşulduğu konvensiyaların tələblərinə əməl etməyə məcburdur

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun rəhbəri Sabit Bağırov bildirib ki, ölkəmizdəki vətəndaş cəmiyyəti təşkilatları Ermənistanın dağ-mədən sənayesinin qanunsuz fəaliyyəti ilə bağlı bir neçə dəfə müxtəlif ünvanlara müraciət edib, bəyanat veriblər: "Ermənistanın dağ-mədən sənayesinin fəaliyyəti nəticəsində yaranan, Yer kürəsinin ekosisteminə regional və qlobal təsir göstərən ekoloji fəlakətlə əlaqədar beynəlxalq ictimaiyyətə və BMT-yə edilən bu müraciət sayca dördüncüdür. Müraciətlərin davamlı xarakter almasının səbəbi məsələnin, həqiqətən, narahatedici və təhlükəli olması ilə bağlıdır. Ermənistanın dağ-mədən sənayesində uzun illərdir ki faydalı qazıntıların hasilatı aparılır. Hasilat zamanı kimyəvi elementlərin təmizlənməsi isə müəyyən tullantıların çaylara axıdılması ilə müşahidə edilir. Bu bir daha sübut edir ki, Ermənistan beynəlxalq ekoloji normalara riayət etmir".

Müsahibimizin dediyinə görə, zəhərli kimyəvi tullantılar transsərhəd suları çirkləndirir: "Həmin çaylar həm də ölkəmizin ərazisindən keçdiyinə görə ətraf mühitə ciddi ziyan vurur. Bu ekoloji fəlakətin qarşısını almaq üçün müvafiq təhlillər aparılmalı, monitorinqlər keçirilməlidir. Ətraf mühiti bu ekoloji təhlükədən azad etmək üçün bütün səyləri birləşdirmək lazımdır. Çirkləndirilmiş çaylar ümumilikdə regionu ekoloji fəlakətlə üz-üzə qoyduğuna görə təkcə yerli deyil, xarici təşkilatlar da məsələyə ciddi yanaşmalıdırlar".

S.Bağırov qeyd edib ki, Ermənistan qoşulduğu konvensiyaların şərtlərini yerinə yetirməyə məcburdur: "İnsanların sağlamlığını, flora və faunanı qorumaq prioritet olmalıdır. Əks halda dağ-mədən sənayesinin fəaliyyəti Ermənistana xeyirdən çox, ziyan vuracaq. Nəzərə almaq lazımdır ki, bu məsələ Ermənistanın özünün də vətəndaş cəmiyyəti təşkilatlarını narahat edir. Təsadüfi deyil ki, onlar bununla bağlı bir neçə dəfə məsələ qaldırıb, etirazlarını bildiriblər".

### Qeyri-şəffaf və hesabatlılığı olmayan dağ-mədən sənayesi

Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyinin sədri Ramil İskəndərli qeyd edib ki, Prezident İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı ekoloji tarazlıqla bağlı məsələlərə toxunub. Prezident qeyd edib ki, Ermənistan həm öz ərazisindəki müəssisələrin fəaliyyəti nəticəsində, həm də o vaxt işğal etdikləri torpaqlarımızda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib. Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları da səssiz qalmayıb, bu məsələ ilə bağlı BMT-yə və beynəlxalq ictimaiyyətə müraciət ediblər".

R.İskəndərlinin sözlərinə görə, Ermənistanın dağ-mədən sənayesində qeyri-şəffaf və hesabatlılığı olmayan istismar fəaliyyətinin geniş təsir dairəsində davamlı inkişaf üçün yaranmış təhlükə insanlara və ətraf mühitə ciddi ziyan vurur. Sənaye müəssisələrinin yüksək zəhərli kimyəvi tullantıları, demək olar ki, bütün transsərhəd suları çirkləndirir. Bu ekoloji təsir insanların sağlamlığına və təhlükəsizliyinə, floraya, faunaya, torpaq, hava və su strukturlarına mənfi təsir göstərir.

"Məsələnin hüquqi tərəfinə gəldikdə isə, Ermənistan BMT-nin bir sıra konvensiyalarının, o cümlədən "Transsərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" Konvensiyasının, "Su və sağlamlıq haqqında" protokolunun, o cümlədən BMT-nin "Avropa İqtisadi Komissiyasının Təhlükəli tullantıların transsərhəd daşınmasına və utilizasiyasına nəzarət" haqqında Bazel Konvensiyasının, "Uzunmüddətli transsərhəd havanın çirklənməsinə dair" Konvensiyanın, "Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə Avropa İqtisadi Komissiyası"nın tələblərini, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, Biznes və İnsan Hüquqları üzrə BMT-nin Rəhbər Prinsiplərini kobud şəkildə pozur", - deyə müsahibimiz bildirib.

R.İskəndərli vurğulayıb ki, Azərbaycan və Ermənistan "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Konvensiyanın tərəfləridir: "Konvensiyanın müddəalarına görə, transsərhəd zonasında hər hansı bir sənaye obyekti tikilərkən onun ətraf mühitə təsiri qiymətləndirilməli, həmin transsərhəd ölkə ilə müzakirə edilməli və razılaşdırılmalıdır. Ona görə də biz haqqımızı tələb edir və QHT-lər olaraq BMT və digər beynəlxalq qurumlardan Ermənistandakı sənaye müəssisələrinin fəaliyyətini izləməklə, beynəlxalq ekoloji normalara riayət olunmasını təmin etmələrini istəyirik".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Köhnə yurdda yeni həyat

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrində ümumi uzunluğu 66 kilometrə yaxın olan 39 avtomobil tunelinin inşası böyük əhəmiyyət kəsb edir.**

Azərbaycan Avtomobil Yolları Agentliyinin məlumatına görə, ərazidə - Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda ümumi uzunluğu 12 min 690,6 metr olan 7, Xudafərin-Qubadlı-Laçın avtomobil yolunda ümumi uzunluğu 2 min 358 metr olan bir o qədər, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunda 12 min 32,79 metrlik 3, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda 25 min 926,97 metrlik 5, həmçinin Kəlbəcər-Laçın avtomobil yolunda 12 min 964,61 metrlik 17 avtomobil tuneli inşa edilir.

Artıq xəbər verildiyi kimi, region üçün böyük əhəmiyyət daşıyan Tərtər-Çaylı-Suqovuşan-Talış, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yollarının (Zəfər yolu) və Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun tikintisi başa çatıb. Digər avtomobil yollarının tikinti və bərpasının 2026-cı ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, bizim əsas istəyimiz işğaldan azad edilən ərazilərin sürətlə yenidən qurulmasıdır. Bu məqsədlə dövlət özünün bütün maliyyə və texniki imkanlarını səfərbər edib. Hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa, yenidənqurma işləri, yeni infrastrukturun yaranması istiqamətində işlər sürətlə davam edir. Eyni zamanda, kənd təsərrüfatı ilə əlaqədar yeni fəaliyyət sahələrinin, o cümlədən xidmət, ticarət, tikinti, nəqliyyat, həmçinin digər sahələrin yaradılması üzrə layihələr icra olunur.




Onu da qeyd edək ki, xeyli əvvəl işğaldan azad edilən ərazilərdə görüləcək bütün bərpa işləri vahid plan üzrə müəyyənləşdirilib, həmin işlərin icrası üçün cəlb ediləcək investisiyaların mənbəyi müəyyənləşdirilib. Bu yerdə vurğulayaq ki, işğaldan azad olunmuş ərazilərin bərpası üçün dövlət büdcəsindən ayrılan vəsait ilbəil artırılır. Üstəlik, yerli və xarici investorlara vəsait qoymaq üçün münbit sərmayə mühitinin yaradılmasın üçün qanunvericilikdə dəyişikliklər də edilib. Məsələn, sahibkarlar üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoymaq üçün vergi güzəştləri yaradılıb. Bu güzəştlərə əsasən işğaldan azad edilmiş ərazinin rezidentləri bu il yanvarın 1-dən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar. Sahibkarlara verilən bu dövlət dəstəyi biznes subyektinin əsas vergi yükünün əhəmiyyətli dərəcədə azaldılmasına imkan yaradacaq.

Bölgəyə qayıdacaq əhalinin kənd təsərrüfatı və içməli suya olan tələbatının ödənilməsinə də xüsusi diqqət yetirilir. Xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ilə təmin olunması məqsədi ilə müvafiq dövlət proqramında su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin 2026-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılır. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərə qayıdacaq əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər görülür. Ərazilərdə həmçinin zəruri rabitə infrastrukturu qurulmaqla mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, internet, poçt və s. xidmətlər təşkil olunur.

Bu ərazilərdə aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işləri qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcək. "Ağıllı kənd", "Ağıllı şəhər" layihələrinin icrası bununla bağlıdır. Dövlət proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə insan kapitalının inkişafına yönəldilən sosial xidmətlər şəbəkəsinin qurulması gələcəkdə bölgədə məskunlaşacaq əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi, mədəniyyət və idman obyektlərinin bərpasına, həmçinin məşğulluq imkanlarının artırılmasına, özünüməşğulluq proqramlarının həyata keçirilməsinə, reabilitasiya müəssisələrinin qurulmasına imkan yaradacaq.

Yay fəslinin verdiyi imkanlardan istifadə edilərək işğaldan azad olunan ərazilərdə görülən işlər bir qədər də sürətlənib. Bütün bunlar onu deməyə əsas verir ki, tezliklə bu yerlər yenidən canlanacaq, keçmiş məcburi köçkünlər doğma yerlərdə dövlətin onlara yaratdığı yüksək həyat şəraitinə qovuşaraq çəkdikləri ağrı-acıları qismən də olsa unudacaqlar.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Tarixin izi ilə



# Qala şəhərimizdə tarixi abidələrin bərpasına xüsusi diqqət yetirilir

## Hazırda respublikamızın ərazisində 6300-dən artıq tarix və mədəniyyət abidəsi mövcuddur

**Dünyada bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdən biri də Azərbaycandır. Bunu ölkəmizin ərazisində tapılan və yaşı minillikləri ötən abidələr, arxeoloji qazıntılar və tarixi məxəzlər də sübut edir. Hazırda respublikamızın ərazisində 6300-dən artıq tarix və mədəniyyət abidəsi mövcuddur.**

Çıxışlarının birində "Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla - yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk", - deyən xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə bu abidələrin mühafizə, bərpa, konservasiya, tədqiqat və təbliğat işlərinin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoymuşdur.

Ölkəmizdə tarixi abidələrə daim diqqət və qayğı göstərilir. Onu da xatırladaq ki, üç il bundan öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin və şanlı Azərbaycan Ordusunun şücaəti sayəsində 30 illik erməni işğalından azad edilən Qarabağda Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Qarabağda və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi, 40 mindən artıq eksponatın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri məhv edilmişdir.

Prezident İlham Əliyevin diqqət və qayğısı, habelə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun dəstəyi ilə Vətən müharibəsindən sonra tarixi yaddaşımız olan abidələrin bərpası və mühafizəsi geniş miqyas almışdır. Prezidentin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanan və dövlət başçısının sərəncamı ilə 2013-cü il dekabrın 27-də təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" qəbul olunmuşdur. Bu sənədə daşınmaz tarix-mədəniyyət abidələrinin yeni siyahısının tərtibi, bərpa-konservasiya işlərinə dair normativ sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması, qoruqların maddi-texniki bazasının gücləndirilməsi, yüksəkixtisaslı kadrların hazırlanması, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişafı kimi vacib məsələlər daxil edilmişdir.

"Qarabağın döyünən ürəyi", "Musiqi və incəsənət beşiyi" adlandırılan qədim Şuşa Ermənistan silahlılarının 29 illik işğalı altında olarkən separatçılar buradakı qədim abidələri, heykəlləri, tarixi məkanları, mülkləri, məktəb və müəssisələri, kitabxana, muzey və kinoklubları, bir sözlə, əsası Qarabağın ilk xanı Pənahəli xan tərəfindən qoyulan şəhəri yerləyeksan edərək vandallıqlarını göstərmişlər. Onlar şəhərin azərbaycanlılara məxsusluğunu silməyə çalışmışlar, amma nə qədər çalışsalar da, Şuşa şəhərində mədəniyyətimizi və tarixi məxsusluğumuzu silə bilməmişlər. Çünki Şuşanın hər bir daşında, hər bir abidəsində Azərbaycanın milli mədəniyyətinin nümunələri həkk olunub və bu izləri silmək qeyri-mümkündür. İşğaldan azad olunmasından keçdiyi qısa zaman kəsiyində Şuşaya milli ruh qayıdıb. Əvvəllər olduğu kimi, Cıdır düzündə və Molla Pənah Vaqifin məqbərəsinin önündə mədəni-kütləvi tədbirlərin yenidən keçirilməsinə başlanılıb. Ötən ildən bəri bu şəhərdə şahidi və iştirakçısı olduğumuz bir-birindən maraqlı tədbirlər buna bariz nümunədir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıqlarına əsasən, Şuşanı cənnətməkana çevirmək üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Zəfərdən az sonra dağıdılmış və məhv edilmiş bir sıra tarixi abidələrə, heykəllərə, yerli memarlıq abidəsi hesab edilən binalara ikinci həyat verilib. Yeni mədəniyyət ocaqlarının təməli qoyulub. Böyük qürur hissi ilə qeyd edə bilərik ki, hazırda azadlığının üçüncü ilini yaşayan Şuşada bərpa, quruculuq və tikinti işləri sürətlə aparılır. Şuşa işğaldan azad olunandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə bu şəhərə səfər etmiş və onun bərpası, xüsusən tarixi mədəniyyət abidələrinin yenidən qurulması ilə maraqlanmışlar. Dövlət başçısı Şuşaya səfərləri zamanı bu unikal məkanın və tarixin daş yaddaşına çevrilmiş abidələrin tezliklə bərpa ediləcəyini bildirmişdir.

Xatırladaq ki, işğal zamanı dağıdılmış və məhv edilmiş müqəddəs ünvanlardan biri də Yuxarı Gövhər ağa məscidi olmuşdur. İşğalda olduğu zaman erməni vandalları tərəfindən məscidin interyeri məhv edilmiş, minarələrinin dekoru zədələnmiş, örtükləri dağıdılmışdır. Qəbul edilmiş layihələrə əsasən, Heydər Əliyev Fondunun rəhbərliyi və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə məsciddə bərpa işləri aparılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ötən il sentyabrın sonlarında Şuşada olarkən məscidi ziyarət etmişlər.

Məsciddə nəzərdə tutulan bərpa işləri yüksək səviyyədə başa çatdırılıb, dini ziyarətgahın daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilib. Konservasiya işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən həyata keçirilib.

Cari il mayın 10-da məscidin əsaslı yenidənqurma və bərpadan sonra açılışı olmuşdur. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak etmişlər.

Məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Tikilinin müəllifi məşhur memar Kərbəlayı Səfixan Qarabağidir. Bu məscid ən yaxşı nümunələr sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib.

Dövlət başçısı məscidin ərazisində yerləşən mədrəsə binasında "Mir Möhsün Nəvvab Qarabaği - XIX əsrin ensiklopedik alimi" sərgisi ilə də tanış olub.

Qarabağın tarixini özündə yaşadan yerli memarlıq abidələrindən biri də Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra istifadəyə verilən Mehmandarovların malikanə kompleksidir. Bu malikanə turistlərin böyük maraqla baş çəkmək istədikləri ünvanlardandır. Xatırladaq ki, Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid qədim fayton xüsusi diqqət çəkir.

Zadəgan malikanəsinin qonaq otağı milli dəyərləri nümayiş etdirir. Burada Şuşanın tanınmış nəsilləri - Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aid foto və məlumatlar yer alıb. Malikanədəki otaqları milli əşyalarla yanaşı, avropasayağı məişət əşyaları da bəzəyir. Burada ziyarətçi özünü XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış azərbaycanlı zadəganının evindəki kimi hiss etmiş olur.

Tarixi abidələrin bərpası və yenidən qurulması sırasında dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın heykəlinin Şuşada yenidən ucaldılması rəğbətlə qarşılanmışdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● İncəsənət xadimlərimiz

# Sənət aləmində özünəməxsus yeri vardı



**Azərbaycan təsviri sənət aləmində onun da özünəməxsus yeri var. O, təsviri sənətin dəzgah rəngkarlığı sahəsində fəaliyyət göstərib, yaddaqalan əsərlər müəllifi kimi tanınıb, həmçinin incəsənət istiqaməti üzrə uğurlu ictimai fəaliyyət göstərib. Haqqında söhbət açdığımız şəxs Xalq rəssamı Salam Əbdülqasım oğlu Salamzadədir. Bu il rəssamın anadan olmasının 115 ili tamam olur.**

S.Salamzadə 1908-ci ildə Bakı şəhərində dünyaya göz açıb. O, sənətin sirlərinə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində yiyələnib və sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil alıb. Hələ tələbə ikən "Şərq qadını", "İnqilab və mədəniyyət" jurnallarında bədii tərtibatçı işləyib və illüstrasiyalar çəkib. Rəssam yaradıcılığı boyu süjetli tablo, portret, mənzərə və natürmort janrlarında maraqlı, məna və məzmun yükünə malik sənət əsərləri ərsəyə gətirib. S.Salamzadənin Bakı (1959), (1962), (1974), Moskva (1969), (1974) və Kiyev (1974) şəhərlərində əsərlərindən ibarət fərdi sərgiləri təşkil olunub. Rəssam həmçinin ictimai fəaliyyətlə də məşğul olub. Belə ki, o, Azərbaycan Milli İncəsənət Muzeyinin və N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru vəzifələrində işləyib. Rəssam "Əməkdar incə-



sənət xadimi", "Xalq rəssamı" fəxri adlarına, eləcə də "Şərəf nişanı", "Xalqlar dostluğu" ordenlərinə layiq görülüb. Əsərləri xarici ölkələrin muzey, qalereya və şəxsi kolleksiyalarında saxlanılır.

S.Salamzadə daim axtarışda olmuş, milli təsviri sənət ənənələrimizi mütərəqqi sənət üsulları ilə çuğlaşdıraraq, yeni sənət əsərləri ərsəyə gətirməyə üstünlük vermişdir. Rəssamın yaradıcılığını şərti olaraq iki mərhələyə bölsək, birinci mərhələdə onun daha çox dekorativliyə,

cəsənət xadimlərinin portretləri, əmək adamlarının iş prosesində təsvir olunmuş surətləri olduqca inandırıcı, obrazların xarakterik və psixoloji xüsusiyyətlərini təcəssüm etdirən, daxili aləmlərini açan, həmçinin sənaye mənzərələri və təbiət lövhələrində lirik bədii təfərrüatları özündə əks etdirən bədii elemenlərlə zəngindir. Rəssamın portret əsərlərinə "Maniyə Kərimovanın portreti" (1938), "Üzeyir Hacıbəyovun portreti" (1941), "Xalq artisti Sidqi Ruhullanın portreti" (1944), "Röyal arxasında" (1955), "Azərbaycanın ilk qadın kinorejissoru Qəmər Almaszadənin portreti" (1957), "Gilənarla qızın portreti" (1957), "Nəriman Nərimanovun portreti" (1958), "Qız bababöykü çiçəyi ilə" (1962), "Gənc kolxozçu qızın portreti" (1964), "Kəndli qız" (1972) və başqalarını göstərmək olar. Sadalanan portretlərin hər biri ayrıca dəyərləndirilməyə layiq əsərlərdir. Rəssam ömür-gün yoldaşının - məşhur, nakam şair Əliqulu Qəmküsarın qızı, ölkəmizdə ilk qadın kinorejissor olmuş Qəmər Salamzadənin çoxlu portretini çəkmişdir.

S.Salamzadə süjetli tablo və mənzərə janrında yaratmış olduğu əsərlərində bəzən sintez üsulu ilə iki janrın xüsusiyyətlərini bir tabloda birləşdirərək əks etdirmişdir. Süjetli tablo və məzərə əsərlərindən "Rüstəmin Əfrasiyabla döyüşü" (1934), "Günəş altında" (1958), "Sovxoz çölləri" (1959), "Suya gedən qadınlar" (1968), "Çay plantasiyası" (1970),"Rəfiqələr" (1970), "Qürub çağı" (1973),"Toya gedənlər" (1974), "Astara subtropik sovxozu" (1976), "Rezervuarlar" (1976), "Lənkəran çaybecərənləri" (1977) və digərlərini qeyd etmək olar.

S.Salamzadənin xarici ölkələrə ezamiyyəti və səfərləri nəticəsində yaratmış olduğu tablolar onun yaradıcılığının ayrıca bir istiqamətini təşkil edir. Rəssam ərəb ölkələrində uzunmüddətli yaradıcılıq ezamiyyətində olmuşdur. O, yarım ilə yaxın ərəb ölkələrində yaşamış və Misir, İraq, Suriya, Livan və başqa ərəb ölkələrində gördüyü, müşahidə etdiyi hadisələri rəssam təxəyyülündən keçirərək diqqəti cəlb edən rəngkarlıq əsərləri yaratmışdır. Rəssamın yara-



təmiz rəng keçidlərinə, sadə kompozisiya quruluşu və səthi perspektiv həllə üstünlük verdiyini müşahidə edərik. Sadalanan bu sənət metodları təbii ki, miniatür sənətimizin təsirindən qaynaqlanırdı. Rəssamın belə əsərlərinə Gəncə və Lənkərana səfər edərək görüb müşahidə etdikləri əsasında yaratdığı "Sap sexi", "Gəncə toxuculuq fabrikində", "Komsomolçular iş vaxtı", "MTS-nin açılışı", "Konserv fabrikində" və başqa əsərləri qeyd etmək olar.

S.Salamzadə İkinci Dünya müharibəsi illərində daha çox müharibə qəhrəmanlarının portretlərini və Ədəbiyyat muzeyi üçün süjetli kompozisiyalar işləmişdir. Rəssam müharibə illərindən sonra yaradıcılıq məharətini genişləndirərək, ölkəmizin cənub bölgəsinə (Lənkəran, Astara) ezamiyyətlərə yollanmış, bir çox uğurlu əsərlər yaratmışdır. S.Salamzadənin yaradıcılığının 10 ilə yaxın dövrü ərzində ərsəyə gətirdiyi müxtəlif janrlı əsərlər "Ərəb ölkələri silsiləsi"ni (1961-1970) təşkil edir. Sənətşünas, AMEA-nın müxbir üzvü Kərim Kərimov qeyd edirdi: "Ərəb ölkələrində çox rəssam olmuş, lakin heç kəsə Salam Salamzadə qədər ərəblərin həyatı ilə yaxından tanış olmaq, geniş müşahidələr aparmaq, hadisələrin mahiyyətini duymaq və gələcək əsərləri üçün bu qədər material toplamaq nəsib olmamışdır".

İki qərinəlik yaradıcılıq fəaliyyətinə malik olan, həyatı boyu yadda qalan, bədii estetik zövq aşılayan sənət əsərləri yaratmış Xalq rəssamı S.Salamzadə öz adını əbədi olaraq incəsənət tariximizə həkk edə bilmişdir.

*Əsəd QULİYEV,*
*sənətşünas*

● Xəbərlər

## Xalq artisti Mirzə Babayevin xatirəsi yad edilib



**Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, Xalq artisti, unudulmaz müğənni Mirzə Babayevin (1913-2003) anadan olmasının 110-cu ildönümü münasibətilə Mədəniyyət Nazirliyinin nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, sənətkarın ailə üzvləri II Fəxri xiyabana gələrək, onun xatirəsini yad edib, məzarı üzərinə gül dəstələri qoyublar.**

Mərasimdə Mirzə Babayevin istedadı ilə xalqımızın məhəbbətini qazanan böyük sənətkarlardan olduğu qeyd edilib. O, Azərbaycan estrada musiqisinin inkişafına mühüm töhfələr verib, səsi və ifaçılıq məharəti ilə özünəməxsus üslubunu yaradıb və musiqimizi xarici ölkələrdə layiqincə təmsil edib.

Teatr və kino aktyoru, Xalq artisti Rafiq Əzimov bildirib ki, Mirzə Babayev ömrünün yarıdan çoxunu musiqi sənətinə həsr edib. O, hərtərəfli sənətkar idi. İstedadlı aktyor kimi milli kino tariximizə də adını yazdırıb, "Dərviş Parisi partladır", "Telefonçu qız", "Romeo mənim qonşumdur", "Qorxma, mən səninləyəm!" və digər ekran əsərlərində rəngarəng obrazlar qalereyası yaradıb.

Xalq artisti, kinorejissor Vaqif Mustafayev, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri vəzifəsini müvəqqəti icra edən Xalq artisti Hacı İsmayılov, Xalq artisti, kinorejissor Oqtay Mirqasımov, Xalq artisti, müğənni Gülyanaq Məmmədova görkəmli sənətkarla bağlı xatirələrini danışaraq onun bənzərsiz yaradıcılığından söz açıblar.

## "Tanrının xilas əli" filminin təqdimatı olub




**Bakı Gənclər Mərkəzində "Tanrının xilas əli" bədii-sənədli filminin təqdimat mərasimi keçirilib.**

Ekran əsəri 1958-ci ildə Bakıda, Xəzər dənizində batan azyaşlı qızları xilas edərkən həlak olan məktəbli Tofiq Hüseynovun qəhrəmanlığından bəhs edir. Filmin ssenari müəllifi və rejissoru Babək Abbaszadə çıxış edərək ötən əsrin ortalarında adı bütün respublika ərazisinə yayılmış, sorağı keçmiş SSRİ-nin Moskva şəhərində rəsmi dairələrə qədər çatmış, eyni zamanda Bakıdakı 132-134 nömrəli təhsil kompleksinin şagirdi olmuş Tofiq Hüseynov haqqında filmin çəkilməsində əsas məqsədin qısa ömrünə böyük qəhrəmanlıq sığdıran 17 yaşlı məktəblini müasir dövrün gənclərinə tanıtmaq, xatirəsini əbədiləşdirmək olduğunu bildirib.

Ekran əsərində Tofiq Hüseynovun qısa, lakin mənalı həyatı, qəhrəmanlıq hekayəsi bədii-sənədli formada təqdim edilib. 65 il ərzində ilk dəfə olaraq canlı şahidlər hadisə ilə bağlı öz xatirələrini bölüşüblər.

# Şan-şövkətli Zəngilanda...

**Biz qayıtdıq, Vətən!**



**Şüşəbəndi dağıdılmış uçuq-sökük eyvana dirsəklənib ətrafa baxır, bir dənə də olsun salamat tikili, kəsilməmiş ağac, ən çox da məhrəm, doğma bir üz görmək üçün başdan-ayağa kəndə göz gəzdirirdi... Amma hər yer uçurulmuşdu, dağıdılmış evlərin yerindəki topa-topa daş qalaqlarından başqa heç nə olmayan kənd insanı ürpərdən bir səssizliyə bürünmüşdü. Adətən, gənc adam rəhmətə gedəndə kənddə bu cür vəziyyət hökm sürərdi...**

**İndi də elə idi... Sadəcə bu dəfə səhərin ılıq mehi arabir təbiətin yanıqlı səsini, Oxçuçayın həzin oxşamasını da onun qulağına gətirirdi... Sanki çay dil açıb doğranmış çinarlı meşələrin, heyvanları perik salınmış dağların, çiçəkləri solmuş çəmənlərin, eli didərgin düşmüş yurdların pərişan halını ona anladırdı...**

**Gördüyü bütün bu ürəkparçalayan mənzərələr qarşısında nitqi quruyan və yaşının bu çağında uşaq təki hönkürməkdən başqa gücü heç nəyə yetməyən çarəsiz qadının isə qəlbindən axan kədər seli gözlərindən süzülərək Oxçuçaya qoşulur, məhzun-məhzun axıb gedirdi...**

## Bir gözü ağladı, digəri güldü...

"71 il həyat sürmüşəm, bu dünyanın xoş güzəranını da, ağrı-acılı üzünü də çox görmüşəm, amma mən ömrümdə heç zaman illərdən sonra yenidən Zəngilana, kəndimizə getdiyim gündə keçirdiyim hissləri yaşamamışam. Bunu sözlə ifadə edə bilmirəm, təkcə onu deyim ki, xoşbəxtlik və kədər hissləri eyni anda bürümüşdü məni. Deyirlər ey, bir gözün ağlayar, bir gözün gülər, bax mən də Zəngilanda, Qıraq Müşlanda eyni vəziyyətdə idim..."

"Biz qayıtdıq, Vətən!" rubrikasının budəfəki qonaqları Zəngilan rayon sakini Şövkət, oğlanları Dönməz, Səbuhi və gəlini Sevindik Abbasovlardır.

İyulun 1-də Zəngilana ziyarətə gedən, gəlin köçdüyü, övladlarını böyütdüyü Qıraq Müşlana baş çəkən Şövkət xanım söyləyir ki, doğma torpağa qədəm qoyanda sadəcə qəlbində şükranlıq hissi olub:

- Məcburi köçkünlük illərində çox zaman məni bədgümanlıq bürüyür, düşünürdüm ki, İlahi, bəlkə bir də doğulduğum yurdu görmək qismətim olmadı. Amma göydə Allah, yerdə Müzəffər Ali Baş Komandanımız İlham Əliyev bizi torpaq, vətən həsrətindən qurtardı. Zəngilana ayaq basanda qalib Prezidentimiz İlham Əliyevə, cəsur oğullarımıza minnətdarlıq duyur, şəhidlərimizin ruhuna dualar edirdim.

Amma ürəyimdə daş kimi asılan bir nisgil də var. El-obasını, doğma yurdunu canından çox sevən həyat yoldaşım Rəfaelin bu günlərin həsrətini çəkə-çəkə, nigaran halda dünyadan köçməsi məni çox yandırır...

O gün Zəngilana, kəndimizə ziyarətə gedəndə oğlum Səbuhi məndən xəbərsiz yurd yerimizdən torpaq götürüb atasının Bakıdakı məzarına gətirib səpib. Bunu biləndə xeyli ağladım, amma bu mənə nisbətən təsəlli oldu ki, artıq Rəfaelin illərdir torpaqda qalan gözü yığıldı, nəhayət ki, onun da narahat ruhu dinclik tapdı...

## Yaz əhvallı son bahar

1952-ci ildə Zəngilan rayonunun Rəzdərə kəndində Fətəli Heydərovun ailəsində dünyaya göz açan Şövkət xanımın doqquz bacı-qardaşı olub: Təhməz, Məhərrəm, Tutu, Zəhra, Zöhrə, Qurban, Əhliman, Bəxtiyar, Şəkər.

Rəzdərədə atası kolxozda, anası Səlbi məktəbdə işləyən Şövkət xanım 8-ci sinfə qədər kənd orta məktəbində, daha sonra gecə məktəbində oxuyur, 18 yaşı tamam olanda isə ailə həyatı qurur...

1969-cu il payızın sonu, qış hazırlıqlarının başa çatdırıldığı günlərin birində Qıraq Müşlanın bir neçə sakiniylə Rəzdərəyə odun almağa gələn gənc Rəfaelin diqqətini Fətəli kişinin həyətindəki gözəl bir qız cəlb edir, bir könüldən min könülə ona vurulur...

Çox keçmədən elçilər Fətəli kişinin qapısını döyür, Rəfaellə Şövkət nişanlanırlar. Lakin nişanlısının Şövkəti qaçırması toyunun Rəzdərədə yox, Qıraq Müşlanda çalınmasına səbəb olur...

Toy günü başına qırmızı örpək atılan Şövkəti Rəfaelin dayısıgilin evindən kəndin ortasında yerləşən gəlin köçəcəyi evə qara zurnanın sədaları altında pay-piyada, özü də ayaqyalın aparırlar. Bu, o zamanlar Qıraq Müşlanda bir adət idi: darlıq olmasın deyə, gəlin bəy evinə ayaqyalın aparılar, yol boyu isə üzərlik yandırılardı...

Üzərindən onilliklər keçən uşaqlıq, gənclik zamanlarına xatirələrin köməyi ilə qayıdanda indi də üzünü xoş təbəssüm bürüyən Şövkət xanım deyir ki, Zəngilanda yaşadığı hər bir anı kino lenti kimi gözlərinin önündən keçib gedir...

Atası Fətəli Rəzdərə kəndində məşhur ovçu imiş. Adətən, qışda o, kənddəki digər ovçularla birgə obaşdannan ova gedər, bir də gecə qayıdarmış. Evə gələn kimi həyat yoldaşı Səlbiyə ocağı qalamasını tapşırar, özü isə vurduğu əliyin yaxşı tikələrindən seçib kabab bişirərmiş. Elə ki kabab hazır oldu, şirin yuxuya getmiş uşaqlarının hamısını oyadıb onlara mütləq təzə ətdən çəkilmiş kababdan yedizdirərmiş. Ov ətinin qalanını isə Səlbi xanım qovurma bişirər və saxsı qablara yığıb uşaqlarına yavanlıq edərmiş...

Allıx adlanan biçənək yerlərində atasının biçdiyi otu boz atları ilə kəndə daşıması, barama üçün şax qırmağa gedəndə meşə çiyələyi yığması, ətirli çiyələklərdən dəstə tutub nənəsinə (ana) gətirməsi, kəndin qız-gəlinləri ilə birgə Tərnəvit bulağının yanından xəzəz (pəl bitkisi) yığması, nənəsinin digər bitkilərlə birgə ondan ləzzətli qutab bişirməsi də Şövkət xanımın uşaqlığının, gəncliyinin əziz xatirələri kimi yaddaşına həkk olunub...

## Bəxtəvər çağlar, məşəqqətli illər

Bir müddət Qıraq Müşlanda yaşayan gənc ailə, Rəfaelin rayon mərkəzində işləməsinə görə ora köçməli olur. Həmin vaxtlar Zəngilanın özündə evlər tikilib aylıq ödəniş müqabilində camaata verilirmiş. Onların ailəsi də bu yolla birotaqlı ev alıb rayon mərkəzinə köçür, 10 il orada yaşayırlar. Bu illər ərzində 1 qız, 4 oğul - Təranə, Daşqın, Seymur, Dönməz, Səbuhi adlı övladları dünyaya gələn ailə Şövkət xanımın qayınatası İsrafil kişinin təkidi ilə yenidən Qıraq Müşlana qayıdırlar:

- Qayınatam çox yaşlanmışdı və bir gün o, Rəfaelə dedi ki, "bala, son zamanlarımı yaşayıram, qayıt kəndə anana, bacı-qardaşlarına həyan ol".

Əvvəlcə Rəfaelin ata yurduna, daha sonra isə kəndin yuxarısında tikdiyimiz yeni evimizə köçüb yaşamağa başladıq.

Yoldaşım Zəngilan Mərkəzi Rayon Xəstəxanasında baş həkimin təsərrüfat işləri üzrə müavini, mən isə anbardar işləyirdim. Beləcə sakit həyatımızı yaşayırdıq, amma 1980-ci illərin axırlarından etibarən firavan günlərimizin sonlarına yaxınlaşmağa başladıq.

Heç yadımdan çıxmaz, analarımız, nənələrimiz uşaq vaxtı bizə deyərdilər ki, "gözlər olsun, erməni vəhşilərinin azərbaycanlıların başına gətirdikləri faciəli günləri görməsin". Onlar 1900-cü illərin əvvəllərində qaniçən ermənilərin azərbaycanlı əhalini amansızca qırdıqlarını gözləri ilə görmüşdülər, aclıq çəkmişdilər. İllər keçdi, biz də böyüklərimizin yaşadıqları faciələrə tuş gəldik. Torpaqlarımızdan didərgin salındıq, ermənilərə girov düşən insanlarımızın başına müsibətlər gəldi, ölkənin dörd bir yanında demək olar ki, o qapı olmadı ki, şəhid atəşi düşməsin...

Yoldaşımla birgə Qıraq Müşlanı axırıncı tərk edənlərdən olduq, ikimiz də son günə qədər xəstəxanaya işə gedirdik. Döyüşlərdən yaralılar gətirirdilər, bizə burada çox ehtiyac var idi. Sonra xəstələrin hamısını çıxarıb ölkənin başqa xəstəxanalarına, o cümlədən Bakıya göndərdilər.

Oktyabrın 28-i idi. Artıq hamı kənddən çıxıb getmişdi. Səbuhi ilə ikimərtəbəli evimizin pilləkənində oturub həyat yoldaşımın maşınla bizi də gəlib aparmasını gözləyirdik. Sahibsiz qalan mal-qaranın, itlərin adamı vahiməyə salan səsi kəndi başına götürmüşdü.

Nəhayət, Rəfael gəldi və biz də çar-naçar min bir əziyyətlə, zəhmətlə tikib-qurduğumuz evimizi, doğma kəndimizi tərk etdik...

## Fələyin yazısı başqa idi

Halbuki Abbasovlar ailəsi bir neçə gün əvvələ qədər sevinclə qızları Təranənin noyabrda olacaq toyuna tədarük görürdülər. Xeyli cehiz alıb yığmış, yorğan-döşək, xalça-palaz hazırlamışdılar...

Lakin həmin dəhşətli zamanlarda fələyin yüzminlərlə ailəyə olduğu kimi, onların da həyatına iz saldığı və məcburi köçkünlük adlı başqa bir məşəqqətli yazısı vardı...

Qurulu evlərindən yalnız qızının cehizlik iki dəst yorğan-döşəyini və bir xalçasını aparmağa imkanı yetən Abbasovlar üz tuturlar Araz çayının İran tərəfinə. Dumanlı, çiskinli hava şəraitində düz iki gün orada qalırlar. Yurdlarından didərgin salınan bütün Zəngilan eli kimi, onlar da Arazın o tayında durub ermənilərin taladıqları, od vurub yandırdıqları yurd-yuvalarına, evlərinə ah-nalə, fəğanla tamaşa etməli olurlar:

- Kəndimizdən olan 16 ailə ilə birgə Arazın o tayına yığışdıq və iki gün orada qaldıq. Həyatımızdakı ən dəhşətli anları yaşadığımız həmin o iki gündə soyuq, aclıq bir yana, evlərimizin talanmasına, yandırılmasına baxmağa məcbur olmağımız, əlimizdən heç nəyin gəlməməsi bizə bu dünyada ölümdən betər oldu.

Oradan bizi Biləsuvara göndərdilər və bir məktəbdə yerləşdirdilər. 15 gün orada qaldıqdan sonra televiziyada Zəngilan rayon mərkəzi xəstəxanasının Sabirabadda yerləşdirildiyi haqqında elan verdilər. Harada ki, rayonumuzdan olan xəstəxana işçiləri var idi onları Sabirabada yığırdılar və biz də ora getdik. 2 il orada yaşadıq, yoldaşımla bərabər xəstəxanada işlədik, 49 yaşım tamam olanda təqaüdə çıxdım, Rəfael isə son gününə, dünyadan köçənə qədər xəstəxanada işlədi.



Köçkünlüyün ağır zamanlarıydı, çox çətinliklər çəkdik, Təranəyə toy da edə bilmədik, nişanlısı toysuz apardı...

Heç uşaqlarıma ürəyimcə təhsil də verə bilmədim, baxmayaraq ki, kənddə hamısı yaxşı oxuyurdu. O zaman Dönməz imtahan verib özəl məktəblərin birinə qəbul olmuşdu, amma pulumuz olmadı ki, onu oxudaq. Bilirsiniz, bütün bunlar indi də mənim yuxularımı ərşə çəkir, çox ağlayıram, imkan olmadığı üçün övladlarımı təhsil baxımından ürəyim istəyən yerə yetirə bilmədiyimdən özümü günahkar sayıram...

Böyük oğlum Daşqın həm Birinci Qarabağ müharibəsinin, həm Aprel döyüşlərinin, həm də İkinci Qarabağ müharibəsinin iştirakçısı olub. Ehtiyatda olan polkovnik-leytenantdır. Digər oğlum Seymur da Birinci Qarabağ müharibəsində iştirak edib və ağır yaralanaraq tərxis olunub. Hazırda II qrup Qarabağ müharibəsi əlilidir. Özüm də tibb üzrə Qarabağ müharibəsi veteranıyam.

Nümunəvi xidmətlə hərbi xidməti başa vuran digər oğlanlarım isə mülki sahədə çalışırlar.

Ali məktəblərdə oxuyan oğul-qız nəvələrim var, indi bir-bir onlara toy edirik, gəlin gətiririk, qız köçürürük...

Yəni həyat davam edir, amma ötən illər ərzində yurd nisgilimizi heç nə ovuda bilməyib... Həm də insan yaşlandıqca, sanki torpaq onu özünə daha çox çəkir, doğulduğun yerə can atırsan...

## Vətənə dönəndə...

Nəhayət, Şövkət xanım 1993-cü ilin oktyabrında 41 yaşında tərk etdiyi torpağına, düz 30 ildən sonra - 2023-cü ilin iyul ayında 71 yaşlı ağbirçək kimi dönür.

Oğlanları, gəlini ilə birgə vətənə doğru çıxdığı bu müqəddəs yolda ürəyini ağrıdan, ona əzab verən çox mənzərələrlə rastlaşır. Düşmənin dağıtdığı, daşı-daş üstündə qoymadığı Zəngilana, rayon mərkəzinə gözüyaşlı yetdiklərini, burada yaşadıqları evin yerini belə tapa bilmədiklərini deyən Şövkət xanım danışır ki, vaxtilə rayon mərkəzindən sarı avtobuslara minib Mincivan qəsəbəsi istiqamətilə Qıraq Müşlana gedərlərmiş. İndi isə...

- Viranəyə çevrilmiş Mincivanı, Turabad və Üdgün kəndlərini keçib Qıraq Müşlana getdik. Bir zamanlar bu yol boyu çinar ağacları baş-başa vermişdi, indi o qol-budaqlı ağaclardan əsər yoxdu. Oxçuçayın yanından kəndə piyada getdim. Yolun qırağında çeşməmiz var idi, oradan həm içməli, həm də təsərrüfatda işlətmək üçün su daşıyardıq. İndi o çeşməmiz də quruyub.

Kənddə əvvəlcə qəbiristanlığımızı ziyarət etmək istədik, amma mina təhlükəsi olduğundan onun içərisinə girə bilmədik. Sadəcə doğmalarımızın məzarları səmtə uzaqdan baxa bildim, kənardan ağı deyib ağladım...

Qayınatamın, kəndimizin ağır seyidinin, ümumiyyətlə, qəbiristanlıqdakı bütün qəbirləri dağıdıblar, məzar daşlarını da götürüb atıblar yalın döşünə.

Buradan kəndə çıxdıq. Əvvəlcə gəlin köçdüyüm, qayınatamın evinə getdim, həyətində oturdum, eyvanından baxdım. Ermənilər yaşadıqları üçün kənddə yalnız bu ev nisbətən salamat qalmışdı, onun da şüşəbəndini sökmüşdülər. Yerdə qalan bütün evlər, içərisində də bizim evimiz olmaqla hamısı talanıb və dağıdılmışdır. Ən dəhşətlisi isə kənddə insan hənirinin olmamasıdır, çox səssizdir, kimsəsizdir...





Amma qədəm basdığın torpaq doğma olduğu üçün ürəyində bir toxtaqlıq hissi də yaranır. Bilirsən ki, dünya malı yerinə qayıdandır, təki torpağını itirməyəsən.

Qayıdacağıq, lap mənim ömrüm buna vəfa etməsə də, övladlarım, nəvə-nəticələrim ana yurdlarına dönəcəklər, yenə qurub yaradacaqlar, yenə bu torpaqda xoşbəxt həyata başlayacaqlar...

## "Atamın nəfəsinin dolaşdığı doğma yurdumdayam"

Zəngilanı tərk edəndə 14 yaşında olan Səbuhi Abbasov söyləyir ki, uşaqlıq, yeniyetməlik dövrünün xatirələri hələ də gözlərinin önündən getməyib.

İran tərəfdən dağın arxasından çıxan günəşin iti şüalarının pəncərələrindən içəri düşərək onu şirin yuxudan oyatması, axşam düşənə qədər uşaqlarla futbol oynaması, Oxçuçayda çimməsi, ot biçməsi, məktəbdən üzüm yığımına getməsi həyatının ən yaddaqalan və xoş anları olub...

Dönməz Abbasov isə Bakıda oxuduğu üçün 1993-cü il avqustun 28-i Zəngilandan çıxmış və bir daha geri dönə bilməmişdi. O zaman hələ 16 yaşı tamamlanmamışdı və bəlkə elə buna görə idi ki, 2023-cü il iyulun 1-də həmin 16 yaşı tamam olmamış kənd uşağı kimi getmişdi Qıraq Müşlana.

- Kənd həmin kənd idi, torpağı, havası həminki idi, lakin Qıraq Müşlanın o füsunkar təbiətindən heç əsər-əlamət qalmayıb, yerləyeksan olub. Uşaqlığımın, ömrümün ən gözəl çağlarının keçdiyi nənəmgilin evinə baş çəkdim. Kədər, sevinc, əzab, iztirab, bütün duyğularım bir-birinə qarışmışdı. Biixtiyar olaraq ətrafıma boylanırdım, sanki nənəmlə babam eyvana çıxıb bizi qarşılayacaqdılar, məzəmmət dolu ahənglə, "xoş gəlmisiniz, ay bala, bəs indiyə qədər harada qalmısınız, gözümüz yollarda idi", - deyərək boynumuza sarılacaqdılar...

Sonra öz evimizə getdim... Elə bilirdim ki, nənəmgildə olduğu kimi, böyüyüb boya-başa çatdığım evimizi də görəcəm. Ancaq yaddaşımdakı o ev artıq yox idi. İllər öncə puç olan arzularım, ümidlərim kimi o ev də məhv olmuşdu, düşmən tərəfindən tamamilə dağıdılmışdı.

Bu mənzərə ürəyimi dağlasa da, xoşbəxtəm. Atamın ayaq izinin olduğu, nəfəsinin dolaşdığı doğma yurduma qayıtdım. Torpağına ayağım dəydi, havasını ciyərlərimə çəkdim.

Xoşbəxtəm ki, illərdir bizdən eşitdikləri ilə doğma yurdları haqqında xəyal quran övladlarımız Zəngilanı, Qıraq Müşlanı görə biləcəklər.

Xoşbəxtəm ki, artıq zəngilansızam deyil, zəngilanlıyam söyləyirəm...

## Rəzdərənin viranə halına dözə bilmərəm

Abbasovlar ailəsinin gəlini Sevindik xanım Zəngilanın Rəzdərə kəndindəndir. 1978-ci ildə dünyaya göz açan və beş bacı, bir qardaşı olan Sevindiyin atası mühasib, anası isə havanın proqnozlaşdırılması bürosunun işçisi olub. O danışır ki, 1993-cü ilin oktyabrına qədər kəndləri daim ermənilərin atəşi altında olub. Hətta məktəblərini raket atəşi ilə dağıtdıqları üçün bir müddət təhsilini qonşu Məşədiismayıllı, Şəfibəyli kəndlərində davam etdirib. Sonra evləri də dağıdıldığı üçün Məşədiismayıllı kəndində məskunlaşıblar. 1993-cü ilin oktyabrında isə bütün rayon sakinləri kimi onlar da Zəngilandan birdəfəlik çıxmalı olublar. Əvvəlcə Saatlıda, sonra köçüb Sabirabadda yaşamağa başlayıblar.

- Bəsitçay Rəzdərədən keçib gedirdi. Axar-baxarlı, yamyaşıl kəndimiz fikrimdə, xəyalımda həmişə gözəl məkan kimi qalıb. Elə bilirəm ki, indi də elədir... Buna görə də hələ öz kəndimizə ürək edib gedə bilmirəm, qorxuram ki, Rəzdərənin viranə halına dözə bilməyəm...

Biz hər zaman övladlarımıza Zəngilanı, kəndlərimizi əvvəlki bəxtəvər günləri ilə anlatmışıq. Heç bilmirəm onlar gəlib bu yurdları dağıdılmış görəndə hansı hissləri keçirəcəklər, necə sarsıntı yaşayacaqlar?!.

İyulun 1-də yoldaşımgilin kəndi Qıraq Müşlana getdik. Kəndi elə hala qoyublar, təbiəti elə məhv ediblər ki, görəndə adamın bağrı çatlayır...

Amma işğaldan azad olunmuş bütün rayonlarımızda olduğu kimi, Zəngilanda da aparılan sürətli quruculuq işləri, Ağalı, Talış kəndlərinin, Laçın şəhərinin sakinlərinin qısa zamanda evlərinə qaytarılması ürəyimizdəki ağrı-acıya sərin su çiləyir.

Bilirik ki, bir gün biz də, ailəmiz, övladlarımızla birgə bəzədilmiş köç karvanlarıyla abadlaşdırılmış yurdlarımıza qayıdacağıq...

## Torpaq eşqi

Bu, illər əvvəl Zəngilanda, Rəzdərədə, Qıraq Müşlanda qoyub gəldikləri xoşbəxtliklərinin arxasınca doğma yurdlarına dönən Abbasovlar ailəsinin acılı-şirinli, sonda isə həsrətin, intizarın Vətən vüsalı ilə bitdiyi keşməkeşli həyat hekayəsi idi.

Bir günün içərisində həyatları tar-mar olan bu insanlar, ötən onilliklər ərzində məcburi köçkün olaraq çox ağır günlər keçiriblər, çox məşəqqətlər çəkiblər, aclıqla, yoxluqla sınanıblar. Böyüklər bir, uşaqlar isə ayrı cür yaşam sınağından keçiblər...

*Amma torpaqlarımızın işğaldan azad olunması, o yurdlara yenidən qədəm qoymaları, bir qərinə ərzində çəkdikləri məhrumiyyətlərinin üzərindən xətt çəkdi...*

*Təzədən bu dünyaya gəldilər, qəlblərində, ruhlarında yaşatdıqları Vətən eşqi sayəsində yenidən zəngilanlı, rəzdərəli, qıraq müşlanlı oldular...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azercell

## abunəçilərinin nəzərinə!

Təqdim edilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və korporativ müştərilərə təklif olunan tariflərin optimallaşdırılması məqsədilə 22 avqust 2023-cü il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilərə təqdim edilən "Socar 500" və "Socar 1500" danışıq paketləri ləğv ediləcək. Göstərilən tarixədək paketlərə qoşulan abunəçilər müvafiq istifadə müddəti bitənədək paketlərdən istifadəyə davam edə biləcəklər.

**Qeyd:** Abunəçilər baş verən dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəsindən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012) 490-49-40 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN); Bazar ertəsi - Cümə, 09:00 - 18:00; Şənbə, 09:00 - 16:00; e-poçt: destek@azercell.com) müraciət edərək mövcud tariflər, xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.


# Taxıl ixracı üzrə sazişin pozulması dünyaya nə vəd edir?

## Qiymətlər kəskin artıb

**Rusiyanın taxılın Ukraynadan dəniz yolu ilə təhlükəsiz şəkildə daşınmasına imkan verən sazişdən çıxmaq qərarı yenidən qlobal ərzaq təchizatı ilə bağlı narahatlıqları artırıb. Ötənilki razılaşma, Ukraynanın Qara dəniz limanlarının münaqişəyə görə beynəlxalq əmtəə bazarlarından kəsildiyi zaman sürətlə bahalaşan buğda və bitki yağının qiymətini aşağı salmağa kömək edib.**



Bloomberg-in məlumatına görə, Rusiyanın taxıl sazişindən çıxmasının dünya üçün ciddi nəticələri olacaq.

Mütəxəssislər proqnozlaşdırırlar ki, Ukrayna məhsullarını bazara digər marşrutlar vasitəsilə çatdırmağa davam edəcək, lakin daha yüksək nəqliyyat xərcləri bir neçə aydan sonra başlanacaq növbəti əkin işlərinə mənfi təsir göstərəcək. Bu, uzunmüddətli perspektivdə qlobal tədarükün azalmasına gətirib çıxaracaq.

Ukrayna sahəsinə görə Avropanın ikinci böyük ölkəsidir və onun münbit torpağı olan geniş düzənlikləri kənd təsərrüfatı üçün yararlıdır. Ukraynadan gələn ərzaq Avropa tarixinin gedişatını formalaşdırmağa kömək edib, XIX əsrdə sürətlə inkişaf edən sənaye şəhərlərinin əhalisini qidalandırıb və Sovet İttifaqınının onilliklər boyu təcrid şəraitində yaşadığı dövrdə ölkəyə böyük dəstək olub.

Münaqişədən əvvəl Ukrayna bütün Avropa İttifaqına daha çox taxıl və dünya üzrə günəbaxan tumu və yağının təxminən yarısını ixrac edirdi. Hətta 2022-23-cü illər mövsümündə Ukrayna buğdanın altıncı və qarğıdalının üçüncü ən böyük tədarükçüsü olaraq qalıb. Mövsümün sonuna Ukraynadan taxıl ixracı 48 milyon tondan çox təşkil edib ki, bu da təxminən 2021-22-ci illərlə eynidir.

Çin, İspaniya və Türkiyə təhlükəsiz dəhliz vasitəsilə Ukrayna ərzaq məhsullarının ən böyük alıcıları olub, lakin Misir və Banqladeş kimi nisbətən yoxsul ölkələr də proqram çərçivəsində hər biri bir milyon tondan çox məhsul idxal ediblər.

BMT-nin məlumatına görə, saziş çərçivəsində daşınmalar taxılın hara göndərilməsindən asılı olmayaraq, qlobal tədarükün artmasına və qiymətlərin aşağı düşməsinə kömək edib. Rusiya bu sazişdən çıxdıqdan sonra dünyada taxılın qiyməti kəskin artıb.

Ukrayna Rusiyanın xəbərdarlıqlarına baxmayaraq, Qara dəniz limanlarından taxıl ixracını davam etdirməkdə israrlıdır.

Bu arada ABŞ yüklərin müşayiəti məsələsinin nəzərdən keçirilmədiyini bildirib və sığorta brokeri Marsh mövcud problemlərə əsaslanaraq, Ukraynadan taxıl ixracı proqramını dayandırıb.

Uzunmüddətli perspektivdə Ukrayna yalnız alternativ yollarla məhsul ixrac edə bilsə, fermerlər üçün xərclər artacaq. Bu, onları əkin sahələrini azaltmağa sövq edəcək ki, nəticədə Ukraynadan tədarük daha da azalacaq. Onsuz da müharibə səbəbindən ölkədə fermerlərin əkin sahələri azalıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıda 36 dərəcə isti olacaq

Azərbaycanda iyulun 21-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 756 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 60-70 faiz, gündüz 35-40 faiz təşkil edəcək.

Abşeron çimərliklərində cənub-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 25-26° isti, cənub çimərliklərində isə (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 31-36° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 17-22° isti , bəzi yerlərdə 25-28° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında dağlıq ərazilərdə yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 17-22° isti, bəzi yerlərdə 25-29° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 31-36° isti olacaq.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 28-33° isti, dağlarda gecə 13-18°, gündüz 24-29° isti olacaq.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23° isti, gündüz 32-37° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-22°, gündüz 28-33° isti, dağlarda gecə 16-19°, gündüz 23-28° isti olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*





## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmir işlərinin satın alınması üçün

### *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

| | |
|---|---|
| **Bankın adı:** | **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı** |
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **İBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 03.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (03.07.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 03.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 24 avqust 2023-cü il saat 15:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 01 sentyabr 2023-cü il saat17:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 04 sentyabr 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "TEMİRLİ QRUP" ASC-nin səhmdarlarının nəzərinə

"TEMİRLİ QRUP" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.
İclasın gündəliyində aşağıdakı məsələlər durur:
1. Səhmdar cəmiyyətin 2019-2022-ci illər üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabat.
2. Səhmdar cəmiyyətin İdarə Heyətinin, Müşahidə (Direktorlar) Şurasının və Maliyyə-təftiş komissiyasının formalaşdırılması.
Səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün əlaqə telefonuna zəng edərək məlumat almaq olar.
Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**İclasın keçiriləcəyi tarix: 12 sentyabr 2023-cü il, saat 15:00**
**İclasın keçiriləcəyi ünvan: Bakı şəhəri, Xətai rayonu, H.Aslanov qəsəbəsi, Camal Hacıəliyev küçəsi, 12, ev 5.**
**Əlaqə telefonu: 050 - 330-13-76**

***İdarə Heyəti***

## B İ L D İ R İ Ş

"Bakı Sığorta" ASC-nin Baş ofisi 14.07.2023-cü ildən etibarən yeni ünvanda fəaliyyət göstərəcək.

"Bakı Sığorta" ASC-nin Baş ofisinin yeni ünvanı:

**Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 120.**

***"Bakı Sığorta" ASC***

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrinin idxalını" həyata keçirmək üçün "Aqrar İnnovasiya və Təchizat Şirkəti" QSC-nin (hazırkı adı "Aqrar İnnovasiya və Təchizat Şirkəti" ASC) adına verilmiş qeydiyyat nömrəsi İNİL-161/2020 olan 20 may 2020-ci il tarixli Xüsusi Lisenziya və İNİL-161/2020/1 nömrəli, 20 may 2020-ci il tarixli Xüsusi Lisenziyanın Əlavəsi itdiyi üçün etibarsız sayılır.**


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5192**
**Sifariş 1786**

**Qiyməti 40 qəpik**